**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RÜSTƏM FİRUZ oğlu ƏLİYEV**

# UKRAYNA BÖHRANININ ŞƏRGİ AVROPANIN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ

**HSM-060213-Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: ____________________________**
**s.ü.f.d.,dos. S.Həmidov**

**BAKI - 2022**

# MÜNDƏRİCAT

**GİRİŞ ................................................................ Error! Bookmark not defined.**

**I FƏSİL. UKRAYNA BÖHRANININ YARANMASI........................................ 7**

1.1. Ukrayna rəngli inqlablar və onların nəticələri .................................................. 7

1.2. NATO və Avropa İttifaqının şərgə doğru genişlənməsinə Rusiyanın reaksiyası Ukrayna böhranını yaradan amil kimi ..................................................................26

**II FƏSİL. UKRAYNA BÖHRANI VƏ RUSİYA–QƏRB QARŞIDURMASININ KƏSKİNLƏŞMƏSİ ......................................................38**

2.1. Ukrayna böhranının Şərgi Avropa dövlətlərinin enereji təhlükəsizliyinə təsirləri ..........................................................................................................................38

2.2. Ukrayna böhranının Şərgi Avropa dövlətlərinə geosiyasi təsirləri ..................46

2.3. Ukrayna böhranı və Azərbaycanın mövqeyi..................................................56

**NƏTİCƏ..........................................................................................................63**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI...........................................65**

# GİRİŞ

**Mövzunun aktuallığı:** Ukrayna böhranı Şərgi Avropa ölkələrinə və xüsusiylə onların təhlükəsizliklərinə ciddi təsir göstərir. Belə ki, burada 2014-cü ildə baş verən və 2022-ci ildə daha da şiddətlənən hərbi əməliyyatlar bu regionda yerləşən dövlətləri öz təhlükəsizliyinə daha çox diqqət ayırmaqa məcbur edir. Rusiyanın bu gün Ukraynaya qarşı aqressiv addımları onlar üçün gələcək zamanda bir təhdid kimi görülür. Bununla yanaşı günümüzdə Ukraynada baş verən hadisələr Azərbaycan da daxil olmaqla bütün Dünyaya ciddi şəkildə təsir edir. Buna səbəb olaraq Ukraynanın geopolitik yerləşməsini, onun Dünyanın digər dövlətləri ilə sıx əlagələrinin olmasını və Dünya istehsalatında özünə məxsus yer tutmasını göstərmək olar. O cümlədən Azərbaycanla da Ukrayanın sıx əlagələri mövcuddur. Belə ki, Ukrayna ilə Azərbaycan arasında strateji müttəfiqlik mövcuddur və bir neçə təşkilat çərçivəsində əməkdaşlıq edirlər. Bu kimi təşkilatlara misal olaraq GUAM-ı göstərmək olar. Ukraynadakı sosial-siyasi eləcə də militar durum Avropanın enerji və hərbi təhlükəsizliyinə ciddi bir təhdiddir. Bunun əsas səbəblərindən biri olaraq Ukraynanın Avropa və Rusiya arasında yerləşməsi və onun ərazisindən Rusiyadan Avropaya gedən enerji dəhlizlərinin keçməsini qeyd etmək lazımdır. Bu enerji dəhlizləri Avropa və Rusiya üçün xüsusi əhəmiyyət kəsb edir. Ukrayanadan keçən dəhliz vasitəsilə Rusiyadan Avropaya 55,8 milyard (2020-ci ilin göstəricisi) qaz ixrac edilir.

Avropa sənayesinin və məişət həyatının bu idxaldan nəzərə çarpacaq dərəcədə asılılıqı vardır. Eyni zamanda bu ixracat Rusiya iqtisadiyyatının əhəmiyyətli hissəsini təmin edir. Onu da qeyd etmək lazımdır ki, Qazprom şirkətinin qaz ixracatının 50%-dən çoxu Avropa ölkələrinin payına düşür. Rusiyanın Krımı ilhaq etməsi, Donbasda separatçılara dəstək verib Luqansk və Donetsk qondarma respublikalarını tanıması və Ukraynaya hərbi intervensiyasına qarşı Avropa dövlətlərinin və ABŞ-ın Rusiyaya tədbiq etdikləri embarqo və sanskiyalar mümkün səviyyədə neft və qaz sektorlarına aid edilmir. Buna səbəb olaraq Avropanın Rusiya qazından əhəmiyyətli dərəcədə asılılıqı çıxış edir.

**Problemin öyrənilmə dərəcəsi:** Ukraynada baş verən proseslər daim tədqiqatçıların diqət mərkəzində olan və maraqla araşdırılan bir məsələdir və burada baş verən yeni proseslər müxtəlif aspektlərdən tədqiq olunaraq yeni nəticələr ortaya çıxarmışdır. Müasir dövrdə Ukraynada baş verən proseslər, xüsusən də Rusiya ilə yaşanan gərginlik regional və qlobal aktorların burada maraqları haqqında istər Azərbaycan, istərsə də xarici dillərdə çoxsaylı ədəbiyyat və məbnələr mövcuddur. Dissertasiya işinin mövzusu tədqiq olunan zaman Rus dilində Yuriy Kotlyarevskinin "Narıncı İnqlab: məsləhətçinin gözləriylə", Seyrgey Qara-Murzanın "Narıncı Mina" və Havyer Solananın  "Avropa təhlükəsizlik strategiyası: Daha yaxşı Dünyada təhlükəsiz Avropa" kitablarından dissertasiya mövzusuna aid araşdırmalar aparılmış, müxtəlif nəticələr əldə edilmişdir.

Müxtəlif yerli və xarici saytlardan aktual xəbərlər təhlil edilmiş dissertasiyada istifadə olunmuşdur. Bundan başqa böyük nüfuza malik saytlardan məqalələr, elmi araşdırmalar təhlilə cəlb olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Bu tədqiqatın aparılmasının məqsədi Ukrayna böhranının Şərgi Avropanın təhlükəsizliyinə təsirini öyrənməkdir. Bu məqsədi həyata keçirmək üçün elmi təqiqat işinin üzərinə bir sıra vəzifələr düşür. Bu vəzifələrə ilki Ukraynada baş vermiş rəngli inqlabları və onların nəticələrini araşdırmaqdır. NATO-nun və Avropa İttifaqının şərgə doğru genişlənməsinə Rusiyanın reaksiyası Ukrayna böhranını yaradan amil kimi nəzərdən keçirmək elmi tədqiqatın vəzifələrindən biridir. Bu vəzifələrə Ukrayna böhranının Şərgi Avropa dövlətlərinin enerji təhlükəsizliyinə və geosiyasətinə təsirlərini öyrənmək də aiddir. Eyni zamanda Ukrayna böhranına Azərbaycanın mövqeyini araşdırmaq bu vəzifələrdən biridir.

Tədqiqat əsas vəzifəsi Ukraynada baş vermiş hadisələri dərindən öyrənib, bu proseslərin Şərgi Avropa təhlükəsizliyinə təsirlərini araşdırıb onlar haqda aydın təsəvvür yaratmaqdır. Bunun məntiqi ardıcıllıqı olaraq problemin nədən ibarət olmasını aydınlaşdırdıqdan sonra böhranın Avropa ölkələrinə təsirinin minimallaşdırması yollarının axtarılıb tapılmasına tövhə verməkdir. Eyni zamanda

Ukraynada krizisin aradan qaldırılması yollarının araşdırılması da vacib məqsədlərdən biridir.

Onu da qeyd etmək lazımdır ki, Ukraynada baş verən hərbi əməliyyatlar Rusiyanın bura hücüm eləməsi bütün Dünya birliyini narahat edən ən vacib məsələlərdən biridir. Bu səbəbdən də məsələnin aktuallığını nəzərə alaraq onun həlli yollarının da araşdırılması vacib sayılır.

Bununla yanaşı Ukrayna böhranının Azərbaycanın xüsusən xarici siyasət və iqtisadi əlaqələrinə mühüm təsirini nəzərə alsaq bu məsələnin kökündən öyrənilib, həlli yollarının təklif olunması bu elmi araşdırmaya milli maraqlar prizmasından da əlavə əhəmiyyət yükləyir.

**Tədqiqat işinin nəzəri metodoloji bazası:** Ukrayna böhranın Avropa təhülkəsizliyinə təsirini öyrənən aparıcı alimlərin əsərlərində irəli sürülən ümumiləşmiş fikirlər və əldə edilən nəticələr tədqiqat işinin metodoloji əsasını təşkil etmişdir. Dissertasiya işi yazılarkən tarixi-təsviri metod, analitik-proqnostik metod, kontent və ivent analiz, müqayisəli təhlil metodu, həmçinin situasiyanın təhlili metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi ilk növbədə onun strukturu ilə şərtlənir. Ukraynadakı böhran iqtisadi, demoqrafik həm də hərbi cəhətdən bütün Avropaya, xüsusən Şərgi Avropaya ciddi təsir göstərir. Bu bölgədən keçən tranzit ticarət yolları iflic olması, Avropanın Ukraynada istehsal olunan enerji resurslarından məhrum olması, bölgədə hərbi proseslər nəticəsində güclü mənəvi çöküşün olması, eyni səbəbdən vətəndaşların Ukraynadan qonşu ölkərə müvəqqəti belə olsa köç etməsi və Ukrayna ərazisində demoqrafik sosial kollapsın baş verməsi nəyin ki, Şərgi Avropaya eləcə də bütün Avropaya və MDB ölkələrinə ciddi təsir göstərir. Ukrayna böhranının regional təhlükəsizliyə ciddi təsir göstərməsinin elmi tədqiqi bu aspektdən Azərbaycanda ilk dəfə magistr səviyyəsində araşdırılır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:** Dissertasiya işində müxtəlif dillərdəki materialların öyrənilməsi və nəticədə Azərbaycan dilində irəli sürülən nəzəri müddəalar mövcud təhlillərə əsaslanan tədqiqat üçün elmi əsas ola bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə, əldə olunan nəticələr ali təhsil müəssisələrində "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisasları üzrə magistr səviyyəsində təhsil alan magistrantlar, həmçinin bu istiqamətdə tədqiqat aparan doktorantlar üçün həm nəzəri əsas, həmçinin praktik mənbə rolunu oynaya bilər.

Tədqiqat işi "Beynəlxalq münasibətlər" və "Beynəlxalq münasibətlər tarixi" ixtisası üzrə bakalavr və magistratura dərəcəsi üzrə ixtisaslaşan tələbələrə tədris prosesi üçün məqalə yazmağa, seminara hazırlaşmağa, elmi məlumat almağa kömək ola bilər.

**İşin aprobasiyası:** Bu tədqiqat işi Azərbaycan Dillər Universitetinin Beynəlxalq Münasibətlər kafedrasında yerinə yetirilmiş və müzakirələrin nəticəsində müdafiəyə məsləhət görülmüşdür. Tədqiqat işinin mövzusu ilə bağlı magistrantın aşağıda qeyd olunan tezis və məqaləsi çap olunmuşdur:

1.Əliyev R. Pilotsuz uçuş aparatlarının aktiv istifadə olunduğu müasir dövrdə müharibələrin gedişatına qırıcı təyyarələrin təsiri// "**Heydər Əliyev və Şanlı Azərbaycan"** adlı Respublika tələbə şagird elmi konfransı.

2.Əliyev R. Ukraynada Narıncı İnqlab və onun nəticələri// Gənc Tədqiqatçıların Elmi

əsərləri.

**Dissertasiyanın quruluşu və əhatə dairəsi:** Magistr dissertasiyası giriş, 2 fəsil, beş paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın girişində mövzunun ,problemin aktuallığı qeyd edilmiş, tədqiqatın obyekti və predmeti, həmçinin məqsəd və vəzifələri müəyyən edilmişdir. Eləcə də, tədqiqatın elmi yeniliyi, metodoloji əsası, öyrənilmə səviyyəsi, onun nəzəri-praktik əhəmiyyəti öz əksini tapmışdır. Magistr dissertasiyasının "Ukrayna böhranın yaranması" adlı birinci fəslindəUkraynadakı rəngli inqlabların və NATO və Avropa İttifaqının şərgə doğru genişlənməsinə Rusiyanın reaksiyasının təhlili verilmişdir. Magistr dissertasiyasının ikinci fəsli Ukrayna böhranının Şərgi Avropa dövlətlərinin enereji təhlükəsizliyinə və geosiyasət sahəsinə təsiri, eləcə də böhrana Azərbaycanın mövqeyi təhlilinə həsr olunmuşdur.

# I FƏSİL UKRAYNA BÖHRANININ YARANMASI

## 1.1 Ukraynada rəngli inqlablar və onların nəticələri

Ukrayna böhranının mənşəyini araşdırsaq bir neçə səbəblə qarşılaşa bilərik. Bu səbəblərdən birincisi və digərlərinin əsasında duran səbəb kimi, Ukraynada 1991-ci ildən kapitalizmin qayıtması və eyni zamanda yeni bir milli dövlətin yarandığı mühiti göstərmək olar. İkinci səbəb Ukraynanın qərbdə Avro-Atlantik dövlətlərin, şərqdə isə Rusiyanın yaratdığı regional iqtisadi bloklara və kollektiv təhlükəsizlik təşkilatlarına daxil olmamasıdır. Üçüncüsü, rus imperializminin dirçəlişi; dördüncü, Ukraynanı öz transmilli strategiyalarına daxil etmək uğrunda Rusiya imperializmi və Avropa arasında yaranan rəqabət. Rusiya Krımı ələ keçirməklə və Ukraynanın şərqindəki separatçı üsyanı silahlandırmaqla Ukrayna böhranını hərbiləşdirən və beynəlmiləlləşdirən fəal qüvvə kimi nəzərdən keçirilir. Bu, Avropanın təhlükəsizliyi problemini gündəmə gətirdi və Rusiya ilə ABŞ arasında qarşıdurmanı qaçılmaz etdi. Amma bu həm də Avro-Atlantik təşkilatın özəyi olan dövlətlərin, bir tərəfdən ABŞ və digər tərəfdən ən güclü Avropa dövlətləri arasında fikir ayrılıqlarının yaranması ehtimalını yaradır.

1991-ci ildə müstəqillik əldə etdikdən sonra, Ukrayna liderləri rus tərəfdaşlarından nəhayət, nə vaxt "millət quruculuğu oyununu" dayandıracaqları barədə mütəmadi olaraq istehzalar eşidirdilər. 2008-ci ilin aprelində NATO-nun Buxarestdə keçirilən sammitində Corc Buşa “Ukrayna sadəcə olaraq mövcudluğunu dayandırmaq iradəsində deyil” deyəndə Putin Ukrayna dövlətçiliyinin Rusiya liderlərinə necə paradoksal göründüyünü mükəmməl ifadə etdi. Buna görə də Kiyevin Rusiya ilə Gömrük İttifaqı və ya Avrasiya İqtisadi İttifaqından asılı qalmaqdan çəkinməsi təəccüblü deyil.

1994-cü ildə Leonid Kravçukdan sonra prezident olduqdan sonra Leonid Kuçma beynəlxalq siyasi və iqtisadi sistemdə öz yerini tuta biləcək milli hakim sinfin qurulmasına yönəlmiş strategiya həyata keçirdi. Buraya Qərb və Rusiya kapitalının dövlət əmlakının irimiqyaslı özəlləşdirilməsinin ilk mərhələlərindən

kənarda qalması, ölkə daxilində sərvətlərin toplanması və ölkənin Aİ-yə üzvlüyünə və onun ümumi bazarında iştirakına hazırlamaq məqsədilə texnoloji yenilənməsi daxildir. [12]

Təxminən 2000-ci ildən başlayaraq Putin Rusiyanın Avrasiyadakı güc mövqeyini bərpa etməyə başladı. Əvvəlcə o, Rusiyanın postsovet məkanında iqtisadi əlaqələrinin bərpasına, enerji və mineral ehtiyatlara dövlət nəzarətinin bərpasına və bu sektorlarda bir sıra milli lider korporasiyaların təşviqinə diqqət yetirdi. Sonra Rusiya ilə onun arasında bərpa edilmiş iqtisadi əlaqələr Rusiyanın ən böyük enerji hasilatı və mədənçıxarma şirkətlərinin transmilli rəqabət statusu ilə təmin edilməsi üçün əsas oldu.

Dövlət Sovet İttifaqından çıxmaq və Qərbə qoşulmağın vəd edilmiş rifahı gətirəcəyinə dair getdikcə zəifləyən ümidlərə bağlı olan kövrək ictimai konsensusa arxalanırdı. Bu vədi yerinə yetirməməkdən əsəbiləşən və qəzəblənən Ukrayna xalqı 1994, 2001 və 2004-cü illərdə etirazlara qalxdılar, lakin getdikcə kütləviləşən bu etirazlar hər dəfə vəziyyəti kökündən dəyişdirə bilmədi. Əslində, bu gün ukraynalılar SSRİ-nin son illərində olduğundan daha yoxsuldurlar və o vaxtdan daha çox müxtəlif növ bərabərsizliklərə görə bölünüblər. Onların əsas hüquqlarını - söz, sərbəst toplaşmaq və özünütəşkilat azadlığını müdafiə etməkdə bir neçə dəfə uğur qazansalar da, dövlət siyasətinə və dövlət institutlarına təsiri zəif olaraq qalır.

Ukraynada prezidentliyə hər iki əsas namizəd Viktor Yuşşenko və Viktor Yanukoviç Ukraynanın Avropa İttifaqına qoşulması ideyasını dəstəkləsələr də, onların bir sıra digər məsələlərdə bir-birləri ilə kəskin fikir ayrılıqları var idi:

- Ukraynanın NATO-ya daxil olması;
- UÜO (Ukrayna Üsyançı Ordusu) İkinci Dünya Müharibəsi veteranları ilə bərabərləşdirilməsi;
- Rus dilinə ikinci dövlət dili statusunun verilməsi;
- Kiyev Patriarxlığının Ukrayna Pravoslav Kilsəsinə olan münasibət;
- “Antirusiya” Odessa-Brod qaz kəməri layihəsinə münasibət;

- Rusiyanın Qara Dəniz hərbi donanmasına münasibət.

Daha sonra fikir ayrılıqlarına Amerikanın raket əlehinə müdafiə sistemlərinin yerləşdirilməsinə münasibət də əlavə olundu. Rusiya Viktor Yanukoviçə kömək etmək üçün bir sıra təcrübəli siyasi texnoloqları göndərməklə onun namizədliyinə dəstək verdi. O vaxt Ukraynada müsbət imici olan Vladimir Putin 2004-cü ildə dəfələrlə Yanukoviçə dəstək nümayiş etdirmişdir. Buna baxmayaraq rusiyayönlü namizədlik uğursuzluğa düçar oldu.

2004-cü ildə Ukraynada baş vermiş Narıncı İnqilab Rusiya ictimayətində böyük təəssürat yaratdı. 2005-ci ildə Rusiyada əhalinin 51%-i bu hadisələrin birbaşa ABŞ və digər kənar qüvvələr tərəfindən təşkil edildiyi ehtimalını dəstəkləyib [8].

2004-cü ildə baş verən narıncı inqilab hadisələri Rusiya hakimiyyətinin 2008-ci ildə Rusiyada president seçkiləri zamani ABŞ-ın dövlət çevrilişi təşkil etməyi planlaşdırmasından ehtiyatlanmağına səbəb oldu. Bu nöqteyi-nəzərdən belə bir hakimiyyət dəyişikliyinin əsasını kütləvi küçə etirazları təşkil edə bilər ki, onların əsas qüvvəsi liberal yönümlü siyasi gənclər təşkilatı, əsas dirijoru isə Qərb dövlətləri tərəfindən maliyyələşdirilən QHT-lər və seçkilərdə Qərb dövlətlərindən olan müşahidəçilər olacaqdı.

Prezident Yuşşenko seçildikdən sonra ilk xarici səfərini Moskvaya edir. Daha sonra Ukraynanın yeni rəhbərliyi NATO-ya daxil olmaq niyyətini bəyan edir. Prezident Yuşşenko 21 aprel 2005-ci ildə Ukraynanın hərbi doktrinasına Leonid Kuçmanın 2004-cü il iyulun 15-də administrasiyası tərəfindən doktrinadan çıxarılan NATO-ya daxil olmaq niyyəti haqqında müddəanı qaytarır.

Bu addımlar ABŞ tərəfindən dəstəklənirdi, lakin Rusiyanın mənfi reaksiyasına səbəb oldu. Eyni zamanda, Vladimir Putin bəyanat verir ki, Rusiya Ukraynanın Avropa İttifaqına daxil olması təklifinə etiraz etmir. Ukraynanın NATO-ya daxil olmasına müəyyən maneə olan ictimai rəy sorğularının məlumatlarından belə görünür ki, onların əksəriyyəti alyansa qoşulmağın əleyhinədir [3, s. 120-121]

Narıncı inqilab zamanı Rusiya Federasiyasının Baş Prokurorluğu Yuliya Timoşenkoya qarşı Rusiya qazını oğurlamaq ittihamı ilə cinayət işi açıb. 2005-ci il fevralın 4-də o, Ukraynanın baş naziri təyin olundu, lakin iş bağlanmadı. 2005-ci ilin aprelində Yuliya Timoşenko Rusiyaya rəsmi səfər edəcəyini elan edəndə də belə cinayət işini bağlamadılar.

Ukraynanın yeni hakimiyyət orqanları Vahid Iqtisadi Məkanın yaradılması layihəsinə mənfi münasibət nümayiş etdirir. Eyni zamanda, artıq 2005-ci ilin martında Ukraynanın yeni rəhbərliyi Rusiya ilə "istisnalar və məhdudiyyətlər olmadan azad ticarət zonası" yaratmaq niyyətində olduğunu bəyan etdi. Bununla yanaşı prezident Yuşşenko Avropa İttifaqı ilə oxşar azad ticarət zonası yaratmaq arzusunda olduğunu bəyan edir.

2005-ci ilin noyabrında Rusiyanın müdafiə naziri Sergey İvanovla Ukraynanın müdafiə naziri Anatoli Qritsenko arasında danışıqlar aparılıb. Qara dəniz donanması ilə bağlı mübahisəli məsələlərlə yanaşı, tərəflər hərbi-texniki əməkdaşlığın perspektivlərini də müzakirə etdilər. Sergey İvanovun sözlərinə görə, Ukrayna NATO-ya daxil olarsa, onunla hərbi-texniki əməkdaşlıq tamamilə dayandırılacaq.

Bu addımlar ABŞ tərəfindən dəstəklənir, lakin Rusiyanın mənfi reaksiyasına səbəb olur. Eyni zamanda, Vladimir Putin bəyanat verir ki, Rusiya Ukraynanın Avropa İttifaqına daxil olması təklifinə etiraz etmir. Ukraynanın NATO-ya daxil olmasına müəyyən maneə olan ictimai rəy sorğularının məlumatlarıdır ki, onların əksəriyyəti alyansa qoşulmağın əleyhinədir [3, s. 120-121]

2004-cü ildə olduğu kimi, 2013-cü ildə də Maydan Ukrayna hakim sinfinin hakimiyyəti demokratik şəkildə bölüşə bilməməsinin və ya öz cəmiyyətinin inkişafına resurslar yatıra bilməməsinin nəticəsi idi. Demokratik legitimliyin və ya kifayət qədər ictimai konsensusun olmaması dövləti zəif edir və qonşu ölkələrin təklif etdiyi çağırışlara və imkanlara cavab vermək iqtidarından çıxarır.

Beləliklə, indiki böhran ilk növbədə yeni müstəqil dövlətin 1991-ci ildə təməlini qoyan kütlənin gözləntilərini doğrulda bilməməsi ilə bağlıdır. Maydan qışı 2013-2014 bu açıq-aydın uğursuzluğa qarşı silsilə üsyanların sonuncusu, ən güclü olan Yanukoviçin fraksiyasını ölkədən qovmaqla yeni hakim sinfin gücünü qısa müddətə sarsıdan, lakin son nəticədə bu sinfi siyasi və iqtisadi institutlardan çıxara bilməyən kütləvi hərəkat idi.

Mövcud böhrana səbəb olan ikinci tarixi şərait Ukrayna dövlətinin özündən asılı olmayan səbəblərdən nə Avro-Atlantik alyansa, nə də Rusiyanın rəhbərlik etdiyi ittifaqa uğurla inteqrasiya edə bilməməsi oldu. Nəticədə Ukraynanın hər iki tərəfin inteqrasiya layihələrindən təcrid olunması onu regionun əsas dövlətləri arasında münasibətlərdəki dəyişikliklərə qarşı xüsusilə həssas etdi.

İxrac artımı səbəbiylə iqtisadiyyat sürətlə bərpa olundu. Lakin əmək haqlarının və xidmətlərin eyni vaxtda artımı regionlar arasında heyrətamiz dərəcədə qeyri-bərabərlik yaratdı. 2004-cü ilin ortalarına qədər şərqdə orta əmək haqqı 700 qrivnaya yüksəldi, ölkənin qərbində isə bu rəqəm 500 qrivnaya bərabər idi. Artan sosial və regional iqtisadi bərabərsizliklər və getdikcə repressivləşən rejim 2004-cü ildə Narıncı İnqilabın arxasında duran amillər idi.

Kuçma hakimiyyətinin ikinci dönəmindən (və Putinin Rusiyada prezidentliyinini birinci müddətində) rus kapitalistləri Ukrayna iqtisadiyyatına uğurla əhəmiyyətli investisiyalar qoyublar. 2004-cü ildə Kuçmanı əvəzlədikdən sonra Viktor Yuşşenko Avropa investisiya kapitalını ölkəyə dəvət etməklə Rusiyadan olan bu axını balanslaşdırmağa çalışdı. 2008-ci ilə qədər həm Qərb, həm də Rusiya sərmayədarları artıq Ukrayna iqtisadiyyatına böyük ölçüdə nüfuz etmişdilər, lakin onların heç biri onun diversifikasiyasına və ya modernləşdirilməsinə böyük sərmayə qoymamışdı. Bunun əvəzinə hər iki tərəf Ukraynanın təbii ehtiyatlarını, ucuz işçi qüvvəsini və bazarlarını öz regional istehsal və istehlak zəncirlərinin aşağı texnologiyalı hissələrinə çevirməyə çalışırdı.

2008-ci ilin maliyyə böhranı isə heç bir tərəfə dominant mövqelərə iddia etməyə imkan vermədi. Ukrayna oliqarxları qlobal siyasi və iqtisadi sistemdə müstəqil kapitalist sinfi kimi sağ qalmaq ümidini hələ də itirməmişdilər. Onlar Rusiyanın başçılıq etdiyi inteqrasiya layihələrinə: Müstəqil Dövlətlər Birliyinə, sonra isə Gömrük İttifaqına qoşulmağa müqavimət göstərirdilər. Digər tərəfdən, Avropa İttifaqı onları öz tərkibində görmək istəmədi və bunu 2005-2007-ci illərdə Viktor Yuşşenkodan gələn Aİ-yə üzvlüklə bağlı planın hazırlanması tələbindən imtina etməklə daha aydın göstərdi. Ukraynanın bütün liderləri qərbyönlü olmuşdur. Üstəlik, Aİ-nin ən böyük dövlətləri - Fransa, Almaniya və İtaliya Ukraynanın NATO-ya üzvlük təklifinin qəti əleyhdarları olaraq qalırdılar.

Beləliklə, Ukrayna özünü Avropa və Rusiya arasında "boz zona"da tapdı və böyük ehtimalla onlar arasında Rusiyanın canlanması və ABŞ-ın Avropadakı təsirinin azalması ilə bu dövlətlərin arasında kəskinləşən qarşıdurmanın qurbanına çevrilməyə məhkum idi.

Mövcud böhrana səbəb olan üçüncü tarixi amil Rusiyanın imperialist ambisiyalarının yenidən canlanması oldu. 1990-cı illər ərzində Qərb ölkələri siyasi gündəmi müəyyən edirdilər və onların siyasəti Mərkəzi Avropa və Baltikyanı dövlətləri Aİ və NATO-ya inteqrasiya etmək, eyni zamanda Rusiya, Ukrayna və Belarusu hər zaman Qərbə inteqrasiya layihəsindən yetərli məsafədə saxlamaq idi.

Strategiya baxımından Rusiya imperializm modeli 20-ci əsrin Amerika modelinə bənzəyir: ölkələrə Rusiyanın xarici siyasətinə sadiqlikləri müqabilində hərbi təhlükəsizlik verilir və Rusiya bazarlarına çıxış üçün maneələrin aradan qaldırılır. Rusiyanın ABŞ-dan fərq ondadır ki, Rusiyanın ekspansiyası onun dünya bazarlarında yanacaq, enerji və minerallar üzrə rəqabət üstünlüyünə əsaslanırdı, halbuki Amerika kapitalizminin qlobal ekspansiyası daha çox diversifikasiya olunmuş istehsal bazasında həyata keçirilirdi.

2000-2008-ci illərdə iqtisadi artımın əsas hərəkətverici amilləri daxili pərakəndə bazara və Ukrayna ixracında üstünlük təşkil edən mallara birbaşa xarici

investisiya axını oldu. Bunlara, mineral xammal və yarımfabrikatlar, kimya məhsulları və ərzaq kimi məhsulları aid etmək olar. 2008-ci ildə bu malların yüksək dərəcədə şişirdilmiş qiymətləri nəhayət çökəndə, ÜDM Ukraynada növbəti il 15%-dən çox azaldı ki, bu da Şərqi Avropada Latviyadan sonra ikinci ən dərin eniş oldu. Özəl və dövlət sektorunun birgə borcu 2008-ci ildə 103 milyard dollara və ya ölkənin ÜDM-nin 88%-nə qədər yüksəldi.

Deutsche Bank-ın 2008-ci il hesabatı belə nəticəyə gəldi ki, 2006-cı ilə qədər Rusiya bütün BRIC ölkələri arasında öz kapitalının xaricdəki ən böyük investoruna çevrilmişdir. Rusiyanın birbaşa xarici sərmayələri (BXİ) ən yaxın rəqibləri olan Hindistan və Çindən iki dəfə artaraq 160 milyard dollar olub.[30]

Rusiya inkişaf etməkdə olan bazarlarda Honq-Konqdan sonra ikinci ən böyük XBİ mənbəyinə çevrilib. Rusiya özəl kapitalı əvvəlcə yaxın xaricə sərmayə qoydu, sonra yeni bazarlar, maliyyələşdirmə və yeni texnologiyalar axtarışında, əsasən yanacaq-energetika sektorunda və metallurgiyada xaricə genişlənməyə başlamışdır.

Rusiyanın 25 ən böyük şirkəti arasında aparılan sorğu göstərdi ki, onlar XBİ-nin 52%-ni Qərbi Avropaya, 22%-ni qonşu ölkələrə və 11%-ni Şərqi Avropaya yönəldiblər. 2010-cu ildə Rusiya şirkətləri tərəfindən birbaşa xarici investisiyalar 200 milyard dolları ötüb və əsasən MDB və Aİ ölkələrinə yönəldilib.

Son 15 ildə Rusiya Ukraynanı öz ənənəvi təsir dairəsinə qaytarmaq üçün hədəfə alıb. Rusiya SSRİ-nin dağılmasından sonra sağ çıxan maşınqayırma, müdafiə, aerokosmik və digər yüksək texnoloji sektorlarda birgə istehsalı davam etdirmək istəyi daimi idi. Eyni zamanda rus kapitalizmi də yeni üfüqlərə can atırdı və Ukrayna onun Mərkəzi və Qərbi Avropaya genişlənməsinin yolunu kəsirdi. Onun ərazisində Rusiyaya lazım olan enerji ehtiyatları, minerallar və kimya məhsulları istehsalçılarına lazım olan emal müəssisələri və nəqliyyat marşrutları var. Rus istehsalçıları tərəfindən bu cür ilk transsərhəd aktivlərin alınması 2000-ci ilə aiddir. Lakin Ukrayna ərazisindən keçən, Rusiya tədarükçülərini avropalı istehlakçılarla

birləşdirən qaz və neft kəmərləri - bütün tranzit vasitələrinin ən qiymətlisi - möhkəm şəkildə Ukrayna dövlətin əlində idi.

Viktor Yanukoviçin prezidentliyi dövründə kütlə siyasi sistemdən daha da uzaqlaşdırıldı, iqtisadiyyat 2008-ci il maliyyə böhranının zərbələri altında sarsıldı və dövlət seçim qarşısında qaldı. Bu seçim inteqrasiya üçün ya Rusiya, ya da Qərb şərtlərini qəbul etməkdən ibarət idi. Bundan başqa regional inteqrasiya problemləri də yaşanırdı. Bu üç amilin qarışığı sonda 2013-2014-cü ilin qışında Kiyevdə partladı.

Yanukoviç 2009-cu il prezident seçkilərində Yuliya Timoşenkonu az fərqlə məğlub edərək, Rusiya ilə siyasi sabitlik və siyasi əlaqələrin bərpası proqramını işə saldı. Onun sələfi Yuşşenko baş nazir olan Timoşenko ilə Rusiya siyasəti ilə bağlı kəskin münaqişəyə girdi. Timoşenko 2008-ci il maliyyə böhranının tam təsirini yaşadı. 2009-cu ildə təcili maliyyə yardımı üçün Beynəlxalq Valyuta Fondu ilə danışıqlar apardı. Ukrayna ilə Rusiya arasında münasibətlərdə əsas yeri Rusiya qazının qiymətinin nə qədər olması və onun Avropaya tranziti ilə bağlı mübahisələr tuturdu. "Naftoqaz Ukrainy" dövlət korporasiyasının "Qazprom"a borcu getdikcə çoxaldı və Rusiya hökuməti bu borcdan istifadə edərək bir sıra məsələlərdə Ukraynaya təzyiq göstərirdi.[13]

Yuşşenko ölkəni Qərb investisiyalarına açmaqla Rusiyanın artan iqtisadi nüfuzunu tarazlamağa çalışdı. Onların axını, görünən nəticələrlə, 2008-ci ildəki maliyyə çöküşü ilə dayandı, bu, insanların güzəranına ağır zərbə vurdu və hətta ölkənin millətçi qərbində kifayət qədər seçiciləri inandırdı ki, Yanukoviçə vəziyyəti dəyişdirmək şansı verildi. Yanukoviçin 2010-cu ilin yanvarında Kiyevə gəlişi, bahalı geyimli oliqarxalr, çox saylı mühafizəçilər, bahalı limuzinlərin sayının artması hər kəsə yaxın gələcəyin gözəl olacağı inamı verirdi.

Yanukoviç nazirliklərinin bizneslə məşğul olmasına icazə verdiyi bütün sahibkarlardan rüşvət almaq sxemini təkmilləşdirdi. Bu vəsaitlərin mənimsənilməsi onu tam hüquqlu bir maqnata çevirdi. Onu da qeyd etmək lazımdır ki, Yanukoviçin

özəl sektordakı nümayəndəsi oğlu Aleksandr idi. O, öz ətrafında yeddi ən nüfuzlu kapitalistdən ibarət dar bir dairəni - sözdə "ailə"ni formalaşdırdı. O, Firtaşın biznesini ləğv etməyə çalışan Yuşşenko və Timoşenkonun dövründə Firtaşın “Rosukrenerqo” şirkəti ilə “Naftoqaz Ukrayna” arasında yaranmış mübahisənin həllindən sonra qaz taciri Dmitri Firtaşı ona 12 milyard kubmetr Rusiya qazı verməklə müflis olmaqdan xilas etmişdi. “RosUkrEnergo” Rusiya və Ukrayna prezidentlərinə və oliqarxlarına dövlətlərarası qaz tranzitindən oğurluq etməyə imkan verən sxem üzrə yenidən “Qazprom” və “Naftoqaz Ukrainy” arasında vasitəçi oldu. “Qazprom” Firtaşıya 11 milyard dollarlıq kredit xətti açdı və bu kredit xəttini Ukraynanın mineral gübrə istehsalında inhisarçı payı əldə etmək, liman obyektlərini, bankı və “İnter” milli telekanalını almaq üçün istifadə elədi.

2012-ci ilin noyabrında prezident Yanukoviç Kipr hökuməti ilə Sovet dövründəki müqavilənin əvəzinə ikiqat vergitutma müqaviləsi imzaladı. Beləliklə, o, ən böyük korporasiyaların mənfəətlərini nəhayət xaricə çıxarmaq, ya da daha aşağı faiz dərəcələri ilə kapital mənfəət vergisi ilə xarici investisiyalar və ya kreditlər şəklində Ukraynaya yenidən investisiya etmək üçün istifadə etdiyi kanalı saxladı. Kapitalın “vergi cənnətlərinə” qaçması həm Ukrayna, həm də xarici şirkətlərin istifadə etdiyi bir çox başqa kanallar vasitəsilə də baş verib. Onlar hər il dövlət büdcəsini 10-20 milyard dollar məbləğində vəsaitdən məhrum edirdilər.

Yanukoviç vəzifəyə başladıqdan dərhal sonra hakimiyyətin qanunvericilik və məhkəmə qolları, prokurorluq və Kiyev şəhər dövlət administrasiyası üzərində prezident nəzarətini gücləndirmək üçün addımlar atdı. Reqlamentlər elə yenidən yazıldı ki, Ali Radada səsvermə zamanı Regionlar Partiyasının səs çoxluğu əldə etməsi daha asan olsun. 2012-ci ilin avqustunda isə Radanın bütün tərkibinin partiyaların proporsional təmsilçiliyi əsasında seçildiyi əvvəlki seçki qanununun əvəzinə yenisi qəbul edildi. İndi mandatların yarısı ümumi səslərin 5%-dən çoxunu toplayan partiyaların proporsional təmsilçiliyi prinsipi ilə, digər yarısı isə birmandatlı dairələrdə seçilirdi. Yeni qanun prezidentin rəhbərlik etdiyi Regionlar Partiyasına “müstəqil” adı ilə maskalanmış, birmandatlı dairələrdə iştirak edən öz

namizədlərini maliyyələşdirməyə icazə verirdi. Bu, həmçinin yerli seçki komissiyalarında demokratik nəzarət (müstəqil müşahidəçilər) sistemini sarsıtmağa və səslərin hesablanmasının saxtalaşdırılmış nəticələrini Mərkəzi Seçki Komissiyasına göndərməyə şərait yaratdı.

2012-ci ilin oktyabrında Ali Radaya keçirilən seçkilər narıncı inqilaba səbəb olan 2004-cü ildə saxtalaşdırılmış prezident seçkilərindən bəri ən çirkli seçkilər olub. Onlar Yanukoviçə həm Regionlar Partiyasının siyahısı üzrə proporsional nümayəndəlik əsasında seçilmiş deputatların, həm də birmandatlı dairələrdə namizədliyi irəli sürülmüş nominal müstəqillərin daxil olduğu Radada deputat çoxluğu ilə təmin ediblər.

Yuliya Timoşenkonun və keçmiş daxili işlər naziri Yuri Lutsenkonun həbsə atılması və onlara 7 il dövlət vəzifəsində işləməsinə qadağa qoyulması güclü rəqiblərlə hesablaşmaqdan əlavə, parlament və parlamentdənkənar müxalifəti qorxutmağa xidmət edirdi. Dövlət təhlükəsizlik orqanları müxalifət namizədlərinə, müstəqil analitiklərə, universitet rəhbərlərinə və müstəqil araşdırmaçı jurnalistlərə təzyiq göstərirdi. Dövlət məmurlarına böhtan atmağı cinayət hesab etməklə medianın ağzını kəsmək cəhdi (uğursuz) edilib. Bu addımlar, daha geniş mənada, Putinin qonşu Rusiyada illər əvvəl həyata keçirdiyi "suveren demokratiyaya doğru" hərəkatına bənzəyirdi.

Ukraynanın xarici ticarəti aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

► Onun Aİ və Rusiya ilə ticarətinin dəyəri ildən-ilə dəyişib, lakin ümumi tendensiya Rusiyanı aparıcı ticarət tərəfdaşı kimi digər ölkələr tərəfindən tədricən sıxışdırmaq olub. Böhran ərəfəsində Aİ və Rusiyanın hər biri Ukraynanın ümumi ticarətinin təxminən üçdə birini təşkil edirdi. 2014-cü ildə Rusiyanın Ukrayna ixracına qarşı tətbiq etdiyi ticarət embarqoları və Ukrayna hökumətinin Rusiya ilə müdafiə ticarətinə qadağa qoyması nəticəsində Rusiyanın payı təxminən 21%-ə düşüb, Aİ-nin payı isə 35%-ə qalxdı.

► Ukrayna Rusiyadan və Rusiya vasitəsilə nəql edilən Türkmənistan nefti və qazından asılı olduğu üçün bütün bu illər ərzində Rusiya ilə ticarət kəsiri yaşayır.

► Ukrayna bütün bu illər ərzində Aİ-dən idxal etdiyi məhsulların (avadanlıq, davamlı istehlak malları) və Aİ-yə ixrac etdiyi məhsulların (xammal və yarımfabrikatlar) kapital tutumu arasında qeyri-mütənasibliyə görə Aİ ilə ticarət kəsiri ilə üzləşmişdir.

► Ukrayna Şərqi Asiya, Yaxın və Orta Şərq və Afrika ölkələri ilə müsbət ticarət balansı sayəsində Rusiya və Aİ ilə xarici ticarət kəsirini bağlaya bilmişdir.

2013-cü ildə Rusiya AB ilə Ukrayna arasında azad ticarət zonası sazişinin gözlənilən imzalanmasından əvvəl ticarət maneələrini yumşaltmaq üçün atılan ilk addımlara cavab olaraq Ukrayna ilə ticarət müharibəsinə başlamağı qərara aldı. Rusiya iddia edirdi ki, Aİ ixracatçıları öz məhsullarını Rusiya bazarına çıxarmaq üçün Ukraynadan istifadə edəcəklər. Bunun üçün də o, Ukraynadan süd məhsulları, meyvə, tərəvəz, ət, günəbaxan yağı və spirt idxalını qadağan etdi.

Xaricdən illik BXİ 2004-cü ildəki 1,7 milyard dollardan Narıncı İnqilabdan sonra 2007-ci ildə 9,2 milyard dollara qədər yüksəldi. Bu illər ərzində Ukrayna ölkəyə adambaşına düşən sərmayə axınına görə dünyada Çindən sonra ikinci yeri tuturdu. İlk dəfə olaraq bu axının əhəmiyyətli hissəsi bank sistemindən keçib; bir çox xarici banklar Ukraynada həm korporativ, həm də kiçik kredit xidmətləri göstərən törəmə şirkətlərini açdılar. XBİ-nin əksəriyyəti kənd təsərrüfatı və mədən konsernləri, istehlak kreditləri, daşınmaz əmlak və idxal olunan lüks malların daxili ticarəti üçün ixrac kreditlərinə yönəldilmişdi.

Rusiya hökuməti 2010-cu ilin aprel ayında Xarkov sazişinin imzalanmasında Ukraynanın borcundan və onun Rusiya ixrac bazarlarından asılılığından təzyiq vasitəsi kimi istifadə etmişdi. Bu müqavilələr ucuz qaz müqabilində Rusiya donanmasının ehtiyacları üçün Sevastopol və digər Krım limanlarının icarə müddətini 2042-ci ilə qədər uzadmışdır. Həmin ilin iyununda Ali Rada NATO üzvlüyünü ölkənin milli təhlükəsizlik strategiyasının məqsədlərindən kənarlaşdırdı

və bununla da blokdan kənar statusa qayıtdı. Yanukoviç həmçinin Rusiya ilə dövlətə məxsus "Naftoqaz Ukrainy" və "Qazprom"un birləşməsi və iki ölkə arasında müdafiə, aerokosmik və aviasiya sənayesində əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı danışıqlara başlamağa razılaşmışdı.

İşçi qüvvəsinin hərəkəti Ukraynanın beynəlxalq siyasi və iqtisadi sistemə daxil olması tendensiyalarını da ortaya qoyur. Sovet İttifaqının dağılmasından sonra Ukrayna öz işçi qüvvəsini iki istiqamətdə yönləndirdi: ölkənin şərqində yaşayan işçilər əsasən Rusiyaya, mərkəzdə və qərbdə yaşayanlar isə Aİ ölkələrinə getdilər. Onların sayı milyonlarla idi və onların xaricə miqrasiyası mübahisəli olsa da, Ukrayna iqtisadiyyatına əhəmiyyətli təsir göstərdi. Ölkə ucuz işçi qüvvəsi kimi istifadə olunduğu ölkələrə - qeyri-qanuni və ya qeyri-qanuni işlə təmin olunmaqla qanuni olaraq getmiş bacarıqlı və savadlı insanları itirirdi.[16]

İşçi miqrasiyası, ticarət, XBİ gəlirlərinin repatriasiyası, borcun qaytarılması, kapitalın qaçması Ukrayna iqtisadiyyatından sərvət çıxarmaq üçün kanalların yaranmasına yol açdı. Həm Avropa İttifaqı, həm də Avrasiya İqtisadi Birliyi/Avrasiya İqtisadi İttifaqı (AvrAzES) bu cür kanalları hərtərəfli tənzimləmək və onları müvafiq metropolisə/özəyinə yönəltmək üçün nəzərdə tutulmuş regional inteqrasiya layihələri kimi fəaliyyət göstərirlər. 2013-cü ildə Ukrayna dövləti Aİ və Gömrük İttifaqı arasında seçim etmək məcburiyyətində qaldı. 2010-cu ildə yaradılan, Rusiya, Belarus və Qazaxıstanın daxil olduğu Gömrük İttifaqı Avrasiya İqtisadi Birliyinin sələfi idi. Sonuncunun (dördüncü üzv kimi Ermənistan olmaqla) fəaliyyətinə 2015-ci ilin yanvarında başlanılıb. Ukraynanın qarşısında duran seçim "sıfır məbləğli seçim" idi: onun hər iki inteqrasiya layihəsində iştirak etmək imkanı yox idi. Onun iqtisadiyyatının həm Rusiya, həm də Aİ bazarları ilə asimmetrik, lakin eyni dərəcədə sıx bağlı olması Rusiya liderləri və Aİ tərəfindən sadəcə olaraq nəzərə alınmırdı.

Bundan əlavə, Aİ "qurumsuz inteqrasiya" təklif etdi. Belə ki, Ukraynaya Aİ-yə üzvlük, hətta üzvlük perspektivi təklif olunmadı, ona görə də o, öz biznesinin və

fəaliyyət göstərdiyi Aİ vahid bazarını formalaşdıracaq qərarların qəbulu prosesindən kənarda qalacaqdı. Bu cəlbedici təklif deyildi.[14]

Yanukoviç noyabrın 29-da Vilnüsdə mətbuat konfransında deyib: "Bizim Moskva ilə münasibətlərdə çox böyük çətinliklərimiz var... Mən üç il yarımdır ki, təkəm. Çox qeyri-bərabər şəraitdə çox güclü Rusiya ilə təkbətək qalmışam". Vəziyyətdən çıxış yolu kimi o, Moskvanı Aİ və Ukrayna arasında üçtərəfli danışıqlara cəlb etməyi təklif etdi. Lakin Aİ rəsmiləri onun təklifini rədd etdilər.[17]

"Şərq Tərəfdaşlığı"nın plenar iclasında çıxış edən Yanukoviç təkid edib ki, o, Sazişi rədd etmir, lakin o, ilkin dövrün əhali üçün mənfi nəticələrini minimuma endirmək üçün növbəti danışıqların aparılmasını istəyir.

Yanukoviç Rusiya və Qərb arasında seçim etmək üçün təzyiq altında idi, lakin o, ölkənin artan problemlərini həll etmək üçün hər iki tərəflə əməkdaşlıq etmək istəyirdi.

Yanukoviç bu sözləri deyəndə Kiyev Maydanında etirazçıların sayı bir neçə minə çatmışdı. Sazişlərin çatışmazlıqlarına və ya Aİ-nin hökumətə milyardlarla borcu ödəmək üçün 10 milyon avrodan çox təklif etməyə hazır olmamasına heç kim əhəmiyyət vermədi. Etirazçılar Yanukoviçin sazişləri imzalamaqdan imtina etməsini Moskvanın təzyiqi nəticəsində sadəcə olaraq Aİ kursundan imtina etməsi kimi qiymətləndirdilər. Noyabrın 29-dan 30-na keçən gecə Maydanda düşərgə salan tələbələr xüsusi təyinatlı polis bölmələri tərəfindən şiddətli şəkildə döyüldü və onlarla şəxs saxlanıldı. Onların rəftarı paytaxtda qəzəb doğurdu və ertəsi gün, dekabrın 1-də Maydanda insanların sayı yüz minlərə çatdı.[18]

Dekabr, yanvar və fevral aylarında baş verən və dünyaya "Maydan" adı ilə tanınan hadisələr Viktor Yanukoviçin siyasi rejimini devirmək uğrunda mübarizə aparan kütləvi hərəkat idi. Yanukoviç hakimiyyətdən uzaqlaşdırılsa da, hakimiyyəti və maraqlarına onun rejiminin xidmət etdiyi oliqarxlar təbəqəsi aradan qaldırılmayıb. Bu təbəqə parçalandı və oliqarxlar arasında Yanukoviç fraksiyasının dayağı şərq sərhədinə doğru itələndi və orada Kiyevdə dövlət institutlarına nəzarəti

əlində saxlayan oliqarxlardan separatçı hərəkat şəklində revanş almağa başladı. Həlledici əhəmiyyət kəsb edən fakt bu idi ki, bir sıra aspektlərdə Maydan bu tarixi anın inqilabi potensialından istifadə edə bilmədi. O, oliqarxları dövlət qurumlarından sıxışdırıb çıxara bilmədi, onların iqtisadiyyata nəzarətini şübhə altına aldı, sosial və iqtisadi inkişaf üçün alternativ proqram təklif edə bilmədi.

Amma oliqarx təbəqəsinin iki tərəf arasında getdikcə daha çox parçalandığı Yanukoviç rejimi ilə Maydan arasındakı mübarizənin nəticəsini təkcə daxili qüvvələr həll etmirdi. Kütlələrin səfərbərliyi başladığı vaxtdan deyilsə də, şübhəsiz ki, rejimin sona yaxınlaşdığı vaxtdan həm Rusiya, həm də ABŞ öz böyük dövlət maraqları çərçivəsində hadisələrin gedişinə təsir göstərməyə çalışırdılar. Ukrayna daxilində hakimiyyət uğrunda mübarizəni nəhayət beynəlxalq böhrana çevirən Rusiya oldu. Yanukoviçin Kiyevdəki mövqeyi getdikcə etibarsızlaşdıqca, Rusiya rəhbərliyi Ukrayna ilə sərhədə yaxın ərazidə hərbi qüvvələr yerləşdirdi və Krımda icarəyə götürülmüş hərbi dəniz bazalarında öz hissələrini gücləndirdi. Yanukoviçin Kiyevdən qaçmasından sonra rus qoşunları Krım administrasiyasını, yarımadanın rabitə və şəhər mərkəzlərini nəzarətə götürməyə başladı və Krımda yerləşən Ukrayna hərbi bazalarının blokadaya aldı.

2014-cü il 23 fevral tarixində Rusiya Krımı ələ keçirməklə 1994-cü ildə ABŞ və İngiltərə ilə imzaladığı Budapeşt Memorandumunu pozdu. Ukraynanın xüsusi olaraq Rusiyaya ixrac edilən nüvə silahlarından imtina etməsi müqabilində o vaxtkı sazişi imzalayan tərəflər Ukraynanın ərazi bütövlüyünə və milli suverenliyinə hörmətlə yanaşacaqlarını vəd etmişdilər. Eyni zamanda Rusiya 1998-ci ildə ratifikasiya etdiyi Ukrayna ilə dostluq, əməkdaşlıq və tərəfdaşlıq müqaviləsini də pozdu. O, beynəlxalq sərhədləri zorla dəyişdirərək BMT Nizamnaməsini pozdu və yalnız Qərb dövlətlərinin kiçik dövlət Kosovonun Serbiyadan ayrılmasına dəstək verərək eyni şeyi etdiyini əsas gətirdi. Çox sonra Putin etiraf etdi ki, Krımın işğalı və ilhaqı onun göstərişi ilə həyata keçirilib.[52] Donbasa göndərilməmişdən əvvəl Krımda xidmət etmiş Rusiya FSB agenti İqor Girkin-Strelkov Neuromir-TV

kanalına verdiyi müsahibədə Rusiya silahlı qüvvələrinin qondarma referendumu necə təşkil etdiyindən danışıb.[19]

Putin Avrasiya İqtisadi Əməkdaşlıq Təşkilatını "müasir dünyanın qütblərindən birinə çevrilməyə və eyni zamanda Avropa ilə dinamik Asiya-Sakit okean regionu arasında effektiv "bağlayıcı" rolunu oynamağa qadir olan güclü dövlətlərüstü birlik" adlandırmışdı.[51]

Amma Ukraynasız belə bir "bağlantı" çətin ki, qurula bilərdi. Rusiya diplomatiyası bu məsələyə diqqət yetirərək, Ukraynanın qoşulacağı təqdirdə səxavətli enerji subsidiyaları vədləri ilə ittifaqa sövq etməyə çalışırdı və əks halda ticarət sanksiyalarına əl atmağla Ukraynanı şantaş etməkdən çəkinmdi. Amma hətta Yanukoviçin dövründə və iqtisadi vəziyyətin pisləşməsi fonunda hökumət müqavimət göstərməkdə davam edirdi. Kiyevlə Moskva arasında əsaslı inamsızlıq var idi, bunun əsas səbəbi Rusiya dövlətinin Ukraynanın müstəqil statusunu tanımaqdan imtina etməsi idi. Bu imtinanın mənşəyi Rusiyanın Ukrayna üzərində imperiya hökmranlığının uzun tarixindən qaynaqlanır. Onun ideoloji əsaslandırması Ukrayna xalqının mövcud olmadığını və Ukrayna xalqının rus xalqının sadəcə "kiçik qardaşları" olduğunu iddia etməkdən ibarətdir.

Separatçı hərəkatı Yanukoviçin Regionlar Partiyasının üzvləri Kiyevdə hakimiyyətinin qırıldığı məlum olduqdan sonra başlayıb. Biznesi Donbassda cəmləşən Yanukoviçin himayədarlıq sisteminin əsas benefisiarlarından biri olan Rinat Axmetov separatçı maliyyə yardımı edib. Separatçıların elan etdikləri məqsəd bölgənin rusdilli əhalisini etnik təmizləmə aparmaq üçün Kiyevdən gəldiyi iddia edilən ukraynalı "faşistlər və Bandera"dan qorumaq idi. Onların əsl məqsədi oliqarxların sənaye aktivlərinin cəmləşdiyi və təsir mərkəzinin yerləşdiyi Maydanın şərqə yayılmasının qarşısını almaq idi. Oliqarx rejimin devrilmiş fraqmenti şərqdə bu separatçı platformadan yapışaraq Kiyevdə hökuməti devirmək üçün vəziyyəti qarışdırmağa başladı.

ABŞ administrasiyası, öz növbəsində, Ukraynanın Rusiyanın hərbi potensialına müqavimət göstərmək üçün öldürücü silahlarla bağlı rəsmi müraciətlərini qətiyyətlə rədd etməkdə davam edir, baxmayaraq ki, bu sorğular Amerika və Avropada onların xeyrinə güclü lobbiçiliklə müşayiət olunurdu. Amerika liderləri hesab edirlər ki, bu cür hərəkətlər münaqişənin həllinə kömək etməkdənsə, onu gərginləşdirə bilər. Bu faktor indiyədək Ukrayna hökumətinin müttəfiqləri Rusiyanın sayəsində Donetsk və Luqansk "xalq respublikaları"nın ordularının əldə etdiyi hərbi üstünlüyü azalda bilməmələrinin səbəblərindən biri idi.

Ukrayna böhranı Rusiya və Qərbi sərt qarşıdurmaya gətirib çıxarıb və yeni soyuq müharibənin astanasına gətirib çıxardı. Ukrayna ətrafında böhranın inkişaf dinamikası bir çox müşahidəçiləri yeni "soyuq müharibə"-nin analoqu haqda düşünməyə vadar edir.

Rəngli inqlablar bir sıra müasir dövlətlərdə xalq etirazları nəticəsində hakimiyyətdə baş verən dəyişikliklər məcmusudur. Çox vaxt belə hesab olunur ki, bu cür hakimiyyət dəyişiklikləri oxşar ssenarilər əsasında həyata keçir, "epitet inqilabı" kimi oxşar adlara malikdir və Qərb ölkələrindən gələn informasiya ilə dəstəklənir. Buraya adətən 2000-ci ildən sonrakı hadisələri aid edirlər. Bir neçə rəngli inqilab postsovet məkanında baş vermişdir [7].

Bu və ya digər şəkildə "narıncı" meydanda küçədə dayanaraq növbəti hakimiyyət dəyişikliyi ukraynalıları gözlənilən rifah artımına və Avropa modelində demokratik rejim qurmağa aparmadı. "Maydan Çarxı" 2014-cü ildə dairəni şəhər küçələrində daha çox qanla tamamladı [11].

Dəfələrlə ukraynalılar kütləvi etiraz aksiyalarına çıxır, əsaslı dəyişikliklər tələb edirlər, bundan sonra istər-istəməz "yeni" simalardan məyus olurlar, təkrar-təkrar siyasi məsələlərin həllində radikal üsullara əl atırlar.

Onu da qeyd etmək lazımdı ki, Maydanın maliyyə komponenti gündə təxminən 1 milyon dollar təşkil edirdi. Belə bir məbləğ, bilavasitə təşkilatçıların hesablamalarına görə, konsert yerinin icarəsi, "mədəni proqram", nümayişçilərə

gələnlərin yemək və yaşayış yeri, "əlavə" pulların ödənilməsinə və digər xərclərə sərf edilib. Beynəlxalq Demokratiya İnstitutunun analitiklərinin fikrincə, belə bir etiraz aksiyasının bir "adam günü" 40-60 dollara başa gəlir.

Günümüzdə "narıncı inqilab"ın əsas nəticələrindən biri kimi Ukraynanın qərbyönlü kursunun tərəfdarlarının ölkədə hakimiyyəti zorla dəyişdirmək imkanını hiss etmələrini göstərirlər. Bir sıra müasir politoloqların mövqeyinə görə, Ukraynadakı "narıncı inqilab" ölkənin qərbyönlü qüvvələri üçün bir növ məktəb oldu və bundan sonra onlar 2014-cü ildə dövlət çevrilişi həyata keçirə bildilər [2, s. 200-201]

Bu gün Ukraynada 18 il əvvəl olduğu kimi eyni sağalmaz problemlər qalmaqdadır: dövlət ənənəsinin olmaması, Kiyev hakimiyyətinin "asan pul haqqında" xəyalları, dəfələrlə yüksək səviyyəli qalmaqallarda adı çekilən Zelenski komandasının aradan qaldıra bilmədiyi oliqarx klanlarının mübarizəsi və vertikal "quda" hakimiyyəti. Maydan etiraz formasının girovu olan Ukrayna daxili münaqişələri həll etmək cəhdlərinə baxmayaraq, klanlar və vətəndaşları küçələrə çıxmağa çağıran xarici siyasət oyunçuları arasında mübarizə yeri olaraq qalır.

Mövzunun iqtisadi tərəfi haqda onu qeyd etmək lazımdır ki, 1994-cü ildən Aİ ilə Ukrayna arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi qüvvədədir. 2007-ci ildən bəri onlar Aİ vahid bazarında artıq mövcud olan qanunvericilik, ictimai rəqabət siyasəti və məhsul standartları əsasında Assosiasiya Sazişi və ümumi "dərin" azad ticarət zonası haqqında danışıqlar aparırlar. Ali Radanın 2013-cü il ərzində təcili olaraq qəbul etdiyi bu tələblər Ukrayna mallarının Aİ bazarı üçün məqbul olması üçün zəruri şərt kimi dövlət və özəl sektorun xərclərinin əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. Aİ ərzaq məhsulları və Ukrayna avtomobillərinin rəqabətdən qorunduğu keçid dövrü istisna olmaqla, ticarət üçün demək olar ki, bütün tarif və qeyri-tarif maneələrinin aradan qaldırılması uzunmüddətli perspektivdə Ukraynanın bir sıra sənayelərini Aİ-dən davamlı və dağıdıcı rəqabətə məruz qoya bilərdi.

2004-2008-ci illərdə Ukrayna banklarının aktivlərində xarici kapitalın payı 13%-dən 50%-ə qədər artmışdır. Bu payın bank kapitalının 30%-i altı Aİ ölkəsinin banklarına məxsus idi, digər 10% Rusiya maliyyə institutlarına məxsus idi. Avropa hissəsi əsasən Avstriyanın Raiffeisenbank, İtaliyanın Unicredit və Intesa San Paolo və Fransanın BNP Paribas başçılıq etdiyi iri kommersiya bankları ilə təmsil olunurdu. Rusiyanın payında isə, dövlət bankları - VTB, Vneşekonombank, Sberbank, BM-Bank və Prominvestbank və Kremlə bağlı dörd başqa bank üstünlük təşkil edirdi.[14]

Ölkənin əsas ixrac məhsullarına tələbat, yəni 2000-2008-ci illər arasında güclü tələbat olduğu müddətdə xarici ticarət balans və ya profisitdə qalmışdır. Bundan sonra ticarət kəsiri ildən-ilə artaraq 2012-ci ildə 15 milyard dollara yaxınlaşdı.

Əmtəə qiymətləri 2009-cu ilin sonuna doğru bərpa olundu, lakin uzunmüddətli perspektivdə beynəlxalq tələbdə canlanma olmadı. 2011-ci ildə Ukraynanın rəsmi elan edilmiş illik ÜDM-i yenidən artdı - 5%-dən çox, lakin bundan sonra yenidən düşməyə başladı və 2012 və 2013-cü illərdə artım qeydə alınmadı. 2014-cü ildə bir sıra amillərin - xarici tələbatın davamlı olmaması, kapitalın kütləvi şəkildə qaçması, Rusiyanın Krımı ələ keçirməsi və ölkənin şərqindəki müharibə nəticəsi kimi Ukraynada ÜDM azalmağa başladı.

Rusiya qazının qiymətini 1000 m3 üçün 100 dollar ucuzlaşdıran Xarkov razılaşmalarına baxmayaraq, Ukrayna Rusiya qaz yataqlarından xeyli aralıda yerləşən Almaniya və İtaliyadan daha çox ödəniş etməkdə davam edirdi. Qonşu Belarus dövləti daha az ödəniş etmək imkanı əldə etdi, bu yalnız onun prezidenti Aleksandr Lukaşenko ölkənin tranzit qaz kəmərlərini Qazproma satdıqdan sonra mümkün oldu. Ukraynalılar buna hazır deyildilər. Nəticə olaraq, əvəzində onlar Rusiyadan idxalı 2007-ci ildəki 57 milyon m3-dən 2012-ci ildə 33 milyon m3-ə və 2013-cü ildə 26 milyon m3-ə qədər azaldaraq qaz təchizatı mənbələrini şaxələndirməyə başladılar.

Ukrayna hökumətinin xarici borcu ödəyə bilməməsi 2013-cü ilin qışının əvvəlində vəziyyətin gərginləşməsinə səbəb olub. 2013-cü il noyabrın 22-də Putin və Yanukoviç Moskvada danışıqlar apardılar, bundan sonra Yanukoviç Vilnüsdə keçiriləcək Aİ-nin Şərq Tərəfdaşlığı sammitində Assosiasiya sazişini və bununla bağlı Avropa Azad Ticarət Zonası Sazişini imzalamayacağını bəyan etdi. Xəbər Kiyevə çatanda bir neçə yüz insan Maydana toplaşaraq Yanukoviçdən müqavilələri imzalamağı tələb edərək etirazlarını bildiriblər. 2000-2007-ci illər üçün Ukraynanın dövlət borcu (özəl sektorun dövlət zəmanətli borcu daxil olmaqla) cüzi artaraq 18 milyard dollara və ya ÜDM-in 12%-nə çatmışdır. Daha sonra bu borc sürətlə böyüməyə başladı və 2013-cü ildə 73 milyard dollara çatdı. Hazırda ölkənin ümumi xarici borcu (özəl sektorun borcu daxil olmaqla) 2013-cü ildəkindən iki dəfə çox, 142,5 milyard dollar təşkil edir.

## 1.2 NATO və Avropa İttifaqının şərgə doğru genişlənməsinə Rusiyanın reaksiyası Ukrayna böhranını yaradan amil kimi.

NATO-nun tarixi boyu genişlənmə prosesinə nəzər salsaq, onun indiyənədək 8 dəfə genişləndiyini görə bilərik. Sovet İttifaqı dağılanadək NATO 3 dəfə genişlənmiş və əsasında 12 dövlətin durduğu ittifaqa Yunanıstan, Türkiyə, Almaniya və İspaniya qoşulmuşdur.

Genişlənmənin 1-ci dalğasında ittifaqa Yunanıstan və Türkiyə daxil oldu. Yunanıstan 1952-ci ilin 18 fevral tarixində aliyansa qoşulmuşdur. 14 avqust 1974-cü ildə Kipr krizisi ilə əlaqəli olaraq bloku tərk etmiş 1980-ci ildə geri dönmüşdür. Türkiyə də ittifaqa 1952-ci ilin 18 fevral tarixində daxil olmuşdur. Onun və Yunanıstanın NATO-ya Qeyri Şimali Atlantika üzvü olaraq alyansa qoşulması Trumen doktrinası əsasında mümkün olmuşdur.

Genişlənmənin 2-ci dalğasında ittifaqa Almaniya daxil olmuşdur. Almaniyanın NATO-ya daxil olması 1955-ci ilin 9 may tarixinə təsadüf edir. Onu da qeyd etmək lazımdır ki, alyans daxilində Almaniyaya silahlı birləşmələr saxlamaqa icazə verildi. Lakin onun özünə aid kütləvi qırğın silahlarına sahib olmaq hüququ yox idi.

Genişlənmənin 3-cü dalğasında 1982 ilin 30 may tarixində NATO-ya İspaniya daxil olmuşdur.

SSRİ dağıldıqdan sonra alyans köhnə Varşava təşkilatı dövlətləri ilə müxtəlif konsultasiya mexanizmləri yaratmaqa başladı. Bu dövlətlərə münasibətdə ittifaq "Açıq qapı" siyasəti yürütməyə başladı. 1994-cü ildə başladılmış keçmiş sosiyal düşərgə dövlətləri ilə əməkdaşlıqı aktiv edən "Sülh naminə tərəfdaşlıq" proqramı alyansın genişlənməsinə yol açdı.

Genişlənmənin 4-cü dalğasında 1999-cu ilin 12 mart tarixində Yuqoslaviyanın bombalanmasına 12 gün qalmış alyansa Macarıstan, Polşa və Çexiya qoşuldu. Bu andan etibarən NATO-nun şərgə doğru genişlənmə prosesi

başladı. 1999-cu ilin fevral ayında Boris Yeltsin parlamentə müraciətində "natosentrizmə" qarşı mübarizə aparmağa çağırış etdi. Çünki NATO-nun genişlənməsi Rusiya üçün qəbuledilməz idi.

Genişlənmənin 5-ci dalğasında 2004-cü ildə NATO-ya Bolqariya, Rumıniya, Slovakiya, Sloveniya, Latviya, Litva və Estoniya qoşuldular. Bu genişlənmə alyans tarixinin ən böyüyü idi. Bununla yanaşı NATO Rusiya sərhədlərinə daha sıx yaxınlaşdı. Rusiya xarici işlər naziri Sergey Lavrov qeyd etmişdi ki, Rusiya əvvəlki kimi, NATO-nun genişlənməsini Avropa təhlükəsizliyinin möhkəmləndirilməsi yolunda səhv addım kimi qiymətləndirir.

Genişlənmənin 6-cı dalğasında 2009-cu ilin 1 aprel tarixində Şimali Atlantika alyansına Albaniya və Xorvatiya qoşuldular. Həmin ilin sentyabr ayında Rusiya Federasiyası prezidenti Dmitri Medvedev bu addımı qəti şəkildə pislədi.

Genişlənmənin 7-ci dalğasında 2017-ci il tarixində NATO-ya Çernoqoriya qoşuldu. Bu qoşulma Çernoqotiyada seçkilərə Rusiyanın müdaxilə etməsi barədə ittihamların səsləndirdiyi bir vaxtda həyata keçdi.

Genişlənmənin 8-ci dalğasında 2019-cu il 6 fevral tarixində Şimali Makedoniyanın NATO-ya üzv olması haqda protokol imzalandı. Rəsmi olaraq Makedoniya NATO-ya 2020-ci ilin 27 mart tarixində COVİD-19 pandemiyası zamanı üzv olmuşdur.[53]

Ümumilikdə NATO-nun Şərgə doğru genişlənməsi Rusiya tərəfindən qəbul edilməz bir məsələ kimi çıxış edir. Bütün Dünyada eləcə də Rusiyada da anlayırlar ki, NATO Rusiyaya qarşı geniş miqyaslı hərbi əməliyyatlara başlaması ehtimalı demək olar yox dərəcədədir. Lakin NATO-nun Şərgə doğru genişlənməsi Rusiyanın siyasi müstəvidə manevr etmə qabiliyyətini azaldır. Eyni zamanda hər hansı mümkün lokal müharibə zamanı onu öz imkanlarından tam şəkildə istifadə edə bilməsinə maniyə ola bilər.[60]

Son aylar NATO ilə Rusiya arasında gərginliyə ilk növbədə Ukrayna səbəb olub. Bununla belə, Moskvanın iddiaları daha da genişlənir, bütün Şərqi Avropanı

əhatə etməyə başlayır. Rusiya diplomatları ABŞ və müttəfiqlərindən 1997-ci ildən sonra Şimali Atlantika alyansına qoşulan ölkələrdən qoşunlarını çıxarmağı tələb edirlər.

Buna baxmayaraq Şərqi Avropa ölkələri inanmır ki, bu mübahisə onların taleyini həll etməlidir. Onların NATO-ya daxil olması Vaşinqtonla Moskva arasında aparılan danışıqların nəticəsi deyil, onların öz istəkləri, qorxuları və maraqlarının nəticəsidir.

Bu dövlətlərin bəziləri onilliklər boyu öz iradəsinə zidd olaraq sosialist düşərgəsinin daxilində olub və hələ 1989-1990-cı illərdə, hələ sovet qoşunları öz ərazilərindən çıxarılmamışdan əvvəl NATO-ya üzv olmaqda maraqlı olduqlarını ifadə etməyə başlayıblar.

1989-cu ildə SSRİ xarici işlər naziri Eduard Şevardnadze Almaniyanın mümkün birləşməsini müzakirə etmək üçün NATO-nun qərargahına səfər etdi. Tezliklə Polşa, Çexoslovakiya və Macarıstanın xarici işlər nazirləri öz səfərlərini etdilər, lakin onlar daha çox ikitərəfli münasibətlərdə maraqlı idilər.

Amerikalı tarixçi Meri Eliz Sarott “Bir qarış belə” adlanan Alyansın şərqə doğru genişlənməsinin tarixinə həsr olunmuş kitabında yazır ki, Moskva onların rəsmi müttəfiqlərinin hərəkətlərini gördü və Sov.İKP MK-nın xarici siyasət şöbəsinin müdirinin müşaviri Nikolay Portuqalov cavab olaraq SSRİ-nin NATO-ya üzvlük məsələsini müzakirə etməyi təklif etdi.

Sarott Con Hopkins Universitetinin görkəmli professorudur. Öz tədqiqatlarında o, Ştazi məxfi Şərqi Almaniya polisinin məxfiliyi silinmiş sənədlərinə, Almaniya Xarici İşlər Nazirliyinin arxivinə, eləcə də iki Amerika prezidenti Corc Buş və Bill Klintonun rəsmi arxivlərinə əsaslanır.

Sarott BBC ilə söhbətində deyib ki, “1989-cu ildə Berlin divarının yıxılmasından demək olar ki, dərhal sonra məlum oldu ki, Soyuq Müharibə dövründə dünya nizamı dağılır. Açıq sual bu idi: bundan sonra nə olacaq?”

Onun sözlərinə görə, Şərqi və Mərkəzi Avropa ölkələri hərəkətə keçmək üçün fürsət gördü: “Macarıstan 1989-cu il noyabrın 16-da Avropa İttifaqının sələfi olan Avropa Birliyinə üzv olmaq üçün müraciət edərək qərbə doğru addım atdı."[58]

Sarott söyləyib ki: "Və bundan qısa müddət sonra müxtəlif siyasətçilər, o cümlədən ABŞ prezidenti Corc Buş və Böyük Britaniyanın Baş naziri Marqaret Tetçer Mərkəzi və Şərqi Avropa ölkələrinin Varşava Müqaviləsi Təşkilatından çıxma ehtimalı barədə fərziyyələr irəli sürməyə başladılar. Artıq 1990-cı ilin əvvəllərində onların NATO-ya daxil olması ilə bağlı ehtimallar ortaya çıxdı”.[58]

Sarott kitabında 1989-cu ildə Çexoslovakiya prezidentinin müşaviri Vatslav Haveldən sitat gətirir: "Çexoslovakiya üzvlük üçün müraciət etsə, NATO necə cavab verəcək?"

Sarott NATO-nun sonrakı genişlənməsinin vədi pozub-pozmaması ilə bağlı mübahisəni ətraflı araşdırır. Tarixçi arxivlərə əsaslanaraq mürəkkəb bir mənzərə çəkir. 1990-cı ildə həm ABŞ dövlət katibi Ceyms Beyker, həm də Almaniya kansleri Helmut Kol Sovet lideri Mixail Qorbaçova Moskvanın mane ola biləcəyi Almaniyanın yenidən birləşməsi müqabilində NATO-nun şərqə doğru genişlənməsindən imtina etməyi təklif etdilər.

Qorbaçovla söhbətlərin birində Beyker demişdi ki: “Biz başa düşürük ki, təkcə Sovet İttifaqı üçün deyil, həm də digər Avropa ölkələri üçün ABŞ-ın Almaniyada NATO tərkibində mövcudluğunu davam etdirəcəyi təqdirdə NATO-nun mövcud hərbi yurisdiksiyasının bir qarışının da şərqə doğru uzanmayacağına dair təminatların olması vacibdir”. Daha sonra sovet lideri belə bir söhbət olmamamasını iddia etməsinə baxmayaraq, bu fatkı təsdiq edən stenoqramlar arxivdə qorunub saxlanılmışdır.[58]

Prezident Böyük Corc Buş dövlət katibinin təklifini  təsdiqləmədi. Tezliklə güzəştlər məsələsi öz-özünə aradan qalxdı. Sovet iqtisadiyyatının tənəzzülü və ADR-də seçkilərdə birləşmə tərəfdarlarının qələbəsi bu prosesi qaçılmaz etdi.

Buş kansler Kolu inandırdı ki, heç bir güzəştə ehtiyac yoxdur və birləşmə üçün "yaşıl işıq" yandırmaq müqabilində o, Moskvaya çox lazımlı kreditlər verə bilər.

Tarixçi onu da qeyd edir ki, 1989-1991-ci illərdə Kol və sosialist bloku ölkələrinin rəhbərləri sovet elitasında mühafizəkarların üsyanına səbəb olmaqdan ehtiyatlanaraq bəzən kəskin addımlar atmır, bəyanatlar vermirdilər.

Onların qorxduğu Qorbaçova qarşı üsyan 1991-ci ilin avqustunda baş verdi və SSRİ-nin dağılmasının katalizatoru oldu.[22]

1994-cü ildə isə NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramı yaradıldı. Bu proqrama sosialist düşərgəsi ölkələri, keçmiş SSRİ respublikaları, o cümlədən Rusiya və iki neytral ölkə, Avstriya və İsveç qoşuldu.

Oksford Universitetinin müəllimi Dimitar Beçev BBC-yə bildirib ki, Şərqi Avropa ölkələrinin NATO-dakı motivləri və yolları fərqli olub. Onlar yeni təhdidləri başqa cür görürdülər: əgər üç Baltikyanı dövlət Rusiyanın mümkün işğalına qarşı özlərini müdafiə etmək istəyirdilərsə, Balkanlarda qeyri-sabitliyin əsas mənbəyi keçmiş Yuqoslaviyadakı qanlı etnik münaqişələr idi.

Sonda isə məqsəd eyni idi. Beçev qeyd edir: "Bu ölkələr təhlükəsizlik axtarırdılar. NATO-ya üzvlük o deməkdir ki, sizə hücum edilməyəcək, ərazi bütövlüyünüz təhlükə altında olmayacaq”.[41]

Ekspert bildirir ki, "Bu ölkələrin bir çoxu həmçinin ABŞ-la ikitərəfli müdafiə sahəsində əməkdaşlıq müqavilələri imzalayıb. ABŞ-la əlaqə 5-ci maddəylə birlikdə çoxsaylı münaqişələrin yaşandığı regionda əlavə təhlükəsizlik təbəqəsi yaradır". NATO nizamnaməsində alyansın bir üzvünə hücumu hamıya hücum kimi nəzərdə tutulur.[41]

Eyni zamanda, qonşu ölkələrdə NATO-ya üzvlük məsələsinə yanaşma fərqli olurdu. Əgər Rumıniyada artıq 1994-cü ildən tərəfdaşlıq NATO-ya gedən yol kimi görünürdüsə, Bolqarıstanda bu mövzu həm Rusiya ilə tarixi əlaqələrə, həm də

NATO ilə eyni zamanda Avropa Birliyinə daxil olmaq istəyinə görə daha çox mübahisəli idi.[41]

Bununla belə, 2004-cü ildə hər iki dövlət eləcə də Latviya, Litva və Estoniya, həmçinin Slovakiya və keçmiş Yuqoslaviya Sloveniya Respublikası ilə birlikdə alyansa daxil oldular. Bundan daha əvvəl isə, 1999-cu ildə onun tərkibinə artıq üç keçmiş sovet müttəfiqi - Çexiya, Macarıstan və Polşa daxil olmuşdular.

Hal hazırda Rusiya NATO-dan bütün bu ölkələrdən xarici qoşunların çıxarılmasını tələb edir. Bu qoşunlar əvvəlcədən orada yerləşdirilməmişdilər, lakin Rusiyanın Krımı ilhaqından sonra alyans özünü əvvəlki öhdəliklərdən azad hesab edir.

Ukraynada müharibə başlayandan sonra belə, hamı xarici qoşunların gəlməsi ilə avtonom rejimdə razılaşmırdı. Dimitar Beçev qeyd edir ki: "2015-2016-cı illərdə Türkiyə ilə Rusiya arasında münasibətlər pisləşəndə NATO-nun Qara Dəniz ərazisində operativ qrupunun yaratmaq ideyası ortaya çıxdı. Lakin Bolqarıstan bunun qarşısını aldı. Bolqarıstan həmişə öz bölgəsində yerli Almaniya rolunu oynayıb".[39]

Bununla belə, Rusiyanın xarici qoşunların çıxarılması ilə bağlı son təklifləri NATO-nun müxtəlif Şərqi Avropa üzvlərinin elitalarını eyni dərəcədə qəzəbləndirdi. Beçevin sözlərinə görə, Ukrayna ətrafında eskalasiya yalnız birlik daxilində birləşməyə xidmət edib.

Ekspert deyir ki, hətta Macarıstandakı Viktor Orban kimi ayrı-ayrı NATO ölkələrindəki rusiyapərəst liderlər də alyansa üzvlük məsələsini ciddi şəkildə şübhə altına almırlar: "Onların bəziləri həm alyansda olmaq, həm də Rusiya ilə yaxşı münasibətlər qurmaq istəyir. Lakin onlardan heç biri NATO-dan çıxmayacaq. Türkiyə, Macarıstan və Çexiya NATO-dan çıxamayacaqlar".[40]

2013-2014-cü illərə dair əlimizdə hansı hansı faktlar var? Məhz NATO-nun Rusiyanın "ənənəvi təsir dairəsi"nə müdaxiləsi Putinin Ukraynaya hərbi müdaxilə şəklində reaksiyasına səbəb olduğunu iddia etmək olar mı? Mövcud sübutlar əksini

göstərir: Putin növbəti qarşıdurmada fəal tərəf olub. O, düzgün hesablayıb ki, Rusiyanın Ukraynaya hücumu, qətiyyətlə həyata keçirilsə və tez bir zamanda öz məqsədinə çatsa, NATO-nun müqayisə oluna biləcək dərəcədə sərt reaksiyasına səbəb olmayacaq.

Beçev qeyd edir ki, alyansın üzvləri kimi bu ölkələrin ABŞ-a çıxışı və təhlükəsizlik zəmanətləri var və Rusiya ilə təkbətək deyil, digər ölkələrin dəstəyi ilə danışırlar.

Lakin onu da qeyd etmək lazımdır ki, NATO-nun yeni üzvləri istədikləri təhlükəsizlik təminatlarını alsalar da, alyansın digər rəsmi funksiyası olan demokratiyanın yayılması prosesində daha az uğur əldə ediblər. Beçevin sözlərinə görə hazırda alyansda hökumətlərini demokratik adlandırmaq çətin olan bir neçə ölkə var. Bu ölkələrə Türkiyə. Macarıstan və Polşanı aid etmək olar.

Beçev bildirir ki, "1990-cı illərdə ölkədə demokratiyanın mövcud olması NATO-ya daxil olmaq üçün şərt idi. Lakin ölkə üzv olduqdan sonra bu şərtə əməl olunmasına nəzarət edən mexanizm yoxdur. Avropa İttifaqının da oxşar problemi var. Buna baxmayaraq Avropa İttifaqının maliyyə mexanizmləri mövcuddur."[41]

O qeyd edir ki, NATO yaranandan bəri alyans sıralarında demokratiya ilə bağlı problemlər var idi. Buna missal olaraq Portuqaliyada Salazarın avtoritar rejimi onilliklər ərzində qalmasını, Yunanıstanda “qara polkovniklər” xuntasının mövcudluğunu və Türkiyədəki hərbi çevrilişləri göstərmək olaraq.

Bütün bunları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, demokratiyanın yayılması ilə bağlı arqumentlər heç vaxt inandırıcı olmayıb. NATO-nun əsas məqsədi demokratiyanı yaymaq deyil bu prosesə töhvə verməkdir.

Ukraynadakı separatçılar rus millətçiləri, faşistlər, muzdlular və Rusiya ilə sərhədi keçərək “məzuniyətə çıxan” hərbi qulluqçular şəklində əlavə qüvvələr aldılar. Rusiya vətəndaşları “Donetsk Xalq Respublikası”na və onun Slovyanskdakı hərbi qərargahına rəhbərliyini ələ keçirərək, Ukrayna rəhbərliyinin bu ərazilər üzərində hakimiyyətini məhdudlaşdırdı. Kiyev hökuməti bu milislərə və onların elan

edilmiş respublikalarına qarşı hərbi kampaniyanı gücləndirəndə Rusiya ora daha çox adam, silah və texnika göndərdi. Bununla o bu bölgəyə etdiyi yardımı artıraraq buradakı separatçıların texniki təchizatlarını və təminatlarını da xeyli gücləndirdi. Donetsk və Luqansk "xalq respublikaları" region əhalisi arasından müəyyən sosial baza və peşəkar kadrları təmin edirdi, lakin onların hərbi, diplomatik və maliyyə imkanları demək olar ki, tamamilə Kremldən asılı idi.

Rusiyanın Krımı ələ keçirməkdə və şərqdə separatçı hərəkata dəstək verməkdə əsas motivi ərazilərin zəbt edilməsi deyil, ilk növbədə Maydanın sıxışdırılması və Yanukoviçin əvvəllər zəmanət verdiyi Rusiyanın Kiyev hökumətinə təsirinin bərpası olub. Maydan Rusiyanın təkcə Ukraynadakı maraqlarını təhdid etmirdi, eyni zamanda regiondakı oliqarx-kapitalist dövlətlərin özünü saxlamağa qadir olan uzunmüddətli xalq üsyanı ilə devrilə biləcəyini göstərirdi.

Rusiya Aİ ilə assosiasiya sazişi, və ya azad ticarət rejimi və ya NATO-ya üzvlük yolu ilə Ukraynanın Atlantik alyansa daha çox cəlb olunmasının qarşısını almağa çalışırdı. Rusiya Aİ və Ukrayna arasında azad ticarət rejiminin ona göstərəcəyi iqtisadi təsirdən və Aİ ilə assosiativ sazişin Ukraynanın NATO-ya daxil olması üçün boşluğa çevrilməsi ehtimalından narahat idi. O, rus kapitalistlərinin Ukrayna bazarlarına çıxışı və onların Avropa İttifaqı investorları və istehsalçıları tərəfindən rəqabətdən qorunması üçün təminat axtarırdı. O, Kiyevdə iqtisadi və təhlükəsizlik siyasətini Rusiyanın regional və qlobal strategiyalarına uyğunlaşdıracaq və nəhayət Avrasiya İqtisadi İttifaqına və Rusiyanın rəhbərlik etdiyi təhlükəsizlik alyansına qoşulacaq bir hökumət istəyirdi.

Rusiya niyə Krımı ələ keçirmək və şərq bölgələrinə müdaxilə etmək üçün məhz bu məqamı seçdi? Rusiya hərbi cəhətdən mücərrəd müqayisə mənasında ABŞ-dan zəif idi, ancaq əgər şərti qüvvələrin həqiqi yerini nəzərə alsaq, Rusiya öz yaxın xaricində NATO-dan güclü idi. Ən yaxın qonşuları hərbi cəhətdən zəif idi və Şimali Atlantika Alyansı nə öz qüvvələrini bu bölgəyə köçürə, nə də orada saxlaya bilirdi. O, sırf maddi-texniki səbəblərə görə Şərqi Avropa üzvləri qarşısında qarşılıqlı

müdafiə öhdəliklərini yerinə yetirə bilmirdi - onun orada heç bir əhəmiyyətli irəli bazası yox idi, nə də tez bir zamanda yerləşdirmək imkanı var idi. Estoniyanın müdafiə naziri Sven Mikserin 24 iyun 2015-ci ildə dediyi kimi: “Putin regionda üstünlüyə malik olduğunu düşünür”.[15]

Putinin hesablamalarının mərkəzində ABŞ və onun avropalı müttəfiqləri arasında Rusiya ilə münasibətlərə dair siyasi fikir ayrılıqları dayanırdı. PEW Araşdırma Mərkəzinin sorğusuna görə, Almaniya, Fransa və İtaliya liderləri Şərqi Avropa NATO üzvləri olan Latviya, Litva və Estoniyanı Rusiya tərəfindən hücuma məruz qaldıqları təqdirdə müdafiə etməyə hazır deyildilər. Bundan əlavə, xaricdə yeni hərbi kampaniyaların rədd edilməsi Amerika ictimai rəyində böyüdü və bu, Amerika administrasiyasını həqiqətən sıxdı.

Bütün bu amillər Rusiyanı əlverişli məqamda Ukraynaya müdaxilə etməyə sövq edirdi və o, buna hazırlaşırdı. O, hərbi potensialını bərpa edir və öz ərazisindən kənarda hərbi bazalar yerləşdirirdi. Sovet İttifaqının dağılmasından sonra Rusiyanın Belarus, Dnestryanı (Moldova), Qırğızıstan, Tacikistan və Qazaxıstanda hərbi bazaları var idi. Putin prezident olduqdan sonra Belarus, Ermənistan, Gürcüstan və Ukraynadakı mövcud bazalara yeni qüvvələr əlavə edilib və əlavə qüvvələr yerləşdirilib. 2014-cü ildə Krımın ilhaqından sonra Moskva Rusiyanın Sevastopol, Kerç və Krımın digər yerlərindəki bazaları ilə bağlı Ukrayna ilə əvvəlki razılaşmaları ləğv edib. 2015-ci ilin yanvarında Rusiya Müdafiə Nazirliyi yeni hərbi doktrina təqdim etdi və Krım, Kalininqrad və Arktikada hərbi potensialın təkmilləşdirilməsi üçün 2020-ci ilə qədər 20 trilyon rubl (310 milyard dollar) xərcləməyi planlaşdırdığını açıqladı[21].

Əgər Putinin məqsədi Ukraynanı NATO ilə daha sıx əlaqələr qurmaq istəyindən əl çəkməyə inandırmaq idisə, onun hərəkətlərinin effekti bunun əksi oldu. Ali Rada ölkənin qeyri-blok statusunu ləğv edib və hökuməti NATO-ya üzv olmaq istəyi ilə yenidən müraciət etməyə çağırıb. Hökumət NATO-dan ölümcül hərbi texnika istəyib, lakin onun bu istəyi rədd edilib. Əhalinin NATO üzvlüyünə münasibətində də tarixi dəyişiklik baş verdi. Belə ki, 1991-ci ildən bəri “əleyhinə”

çoxluqdan "lehinə" çoxluğuna doğru dəyişiklik baş verdi. Və bütün bu müddət ərzində NATO dövlətlərinin, o cümlədən ABŞ-ın rəsmi mövqeyi Ukraynanın NATO-ya üzv olmaq hüququnu tanımaqdan o yana getmədi və eyni zamanda, Ukrayna bu qəbildən olan istənilən müraciətdən fəal şəkildə çəkindirildi. Rusiya separatçılara ağır silahlar tədarükünü artırdığı şəraitdə, ABŞ və müttəfiqləri 2014-cü ilin yayında Ukrayna hücumunu dayandırmağa kömək etmək üçün onlara təlimçilər və siyasi məsləhətçilər göndərdi. Buna baxmayraq Poroşenko 2014-cü ilin avqustunda Uelsdə keçirilən NATO sammitini tələb etdiyi silahları almadan tərk etdi.

Buna baxmayaraq, sammitdə iştirak edən NATO üzvləri Ukraynanın döyüş qabiliyyətini artırmaq üçün ona müxtəlif növ qeyri-öldürücü hərbi texnika tədarük etmək barədə razılığa gəliblər və bunun üçün ABŞ Konqresinin 2015-ci ildə 300 milyon dollar ayırdığı bildirilir. 300 amerikalı ordu təlimçisi Ukraynaya göndərildi. Daha 250 təlimçisi göndərməyə Kanada və Polşa söz verdi. 2015-ci il fevralın 5-də Litvanın müdafiə naziri ölkəsinin Ukraynaya "silah elementləri" ötürdüyünü bəyan edib. Bəzi mətbuat xəbərlərində bunların Sovet dövründən qalma silahlar olduğu ehtimal edilirdi. 2015-ci ilin iyununda həmin müdafiə naziri ölkəsinin Ukraynanı öldürücü silahlarla təmin edən ilk NATO üzvü olmaq niyyətini elan etdi, lakin ertəsi gün bu bəyanatı Litvanın baş naziri təkzib etdi və o, yekun qərarın hələ hazır olmadığını söylədi. Bundan əlavə, "Luqansk Xalq Respublikası" Polşa və İtaliyanın Ukraynaya mina verdiyini iddia etdi və "Novosti" xəbər agentliyi Ukraynanın silah istehsalına dair uzunmüddətli müqavilələri olan Bolqarıstanın onu snayper tüfəngləri ilə təmin etdiyini bildirdi. Obrazlı desək Amerika pulları ilə tank əleyhinə qumbaraları alınırdı. Ola bilsin ki, ABŞ NATO-nun digər üzvlərinin silah köçürməsinə göz yumurdu, lakin bu faktı media xəbərlərinin heç biri müstəqil şəkildə təsdiqlənməyib.

Avropa İttifaqının genişlənməsi Avropa İttifaqının (Aİ) yeni üzv dövlətlərin daxil olması yolu ilə genişlənməsi prosesidir. Proses 1952-ci ildə "Daxili Altılığın" Avropa Kömür və Polad Birliyinin (AB-nin sələfi) əsasını qoyması ilə başladı. O

vaxtdan bəri Birliyə qoşulan ölkələrin sayı 28 dövlətə çatıb. Hazırda bir neçə dövlətlə üzvlüklə bağlı danışıqlar aparılır. Bəzən genişlənmə prosesini Avropaya inteqrasiya da adlandırırlar.

Avropa İttifaqına qoşulmaq üçün ərizəçi dövlət ümumi olaraq Kopenhagen meyarları kimi tanınan siyasi və iqtisadi şərtlərə (1993-cü il Kopenhagen Sammitinin şərəfinə adlandırılmış) cavab verməlidir. Hazırda Aİ fundamental struktur islahatları müqabilində Bosniya və Herseqovina, Serbiya, Monteneqro, Şimali Makedoniya, Albaniya, Ukrayna və Kosovonun uzunmüddətli prespektivdə üzvlüyünü təklif edir.

Avropa İttifaqının birinci genişlənməsi 1973-cü ildə baş vermişdi. Həmin tarixdə təşkilata Böyük Britaniya, Daniya, İrlandiya və Norveç daxil oldular. Daha sonra 1981-ci ildə Yunanıstan, 1986-cı ildə isə Portuqaliya və İspaniya Avropa İttifaqına daxil oldular.

1989-1990-cı illərdə soyuq müharibə bitdi və 1990-cı ilin 3 oktyabr tarixində Şərgi və Qərbi Almaniya birləşdikdən sonra Şərgi Almaniyada ittifaqa Almaniyanın tərkib hissəsi kimi qatıldı. Daha sonra 1995-ci ildə İsveç, Finlandiya və Avstriya Avropa İttifaqına qoşuldular.

2004-cü ilin 1 may tarixində Çexiya, Estoniya, Macarstan, Litva, Latviya, Polşa, Slovakiya, Sloveniya, Malta və Kipr Avropa İttifaqına üzvlüyə qəbul oldular. Bu ölkələrin nisbətən az inkişaf etmiş olması ittifaqın digər üzvlərini narahat edirdi. Rusiya bu genişlənməni özünə bir təhdid kimi görürdü və Avropa İttifaqı Rusiyanın bu genişlənməyə qarşı hər hansı addım atacağından narahat idi. Bu səbəbdən bir Avropa rəsmiləri ilə Rusiya rəhbərliyi arasında görüşlər keçirilirdi. Bu görüşlərdən biri Moskvada Almaniya xarici işlər naziri Y. Fişerlə Rusiya prezidenti V. Putin arasında keçirilmişdi. Görüş zamanı belə genişlənmə əvəzində Rusiya müyyən güzəştlər tələb edirdi. Bu səbəbdən rəsmi Moskva 14 bənddən ibarət etiraz bildirmişdi. Rusiyanın tələb etdiyi güzəştlərə rus dilli azlıqlar məsələsi, Kalininqradın problemləri, polad və buğdaya dair müəyyən kvota əldə olunması,

viza məsələsi və Rusiya ilə Avropa İttifaqı arasında sərhədin nəzarətsiz statusu daşıması kimi məsələlər daxil edilmişdi. Lakin Avropa tərəfi bu cür tələbləri qəbul etmir onları həyata keçirilməsini qeyri mümkün hesab edirdi.[59]

2007-ci ilin yanvar ayının 1-də Avropa İttifaqına Bolqariya və Rumıniya qəbul oldular.

2013-cü ilin 1 iyul tarixində Xorvatiya Avropa İttifqına üzvlüyə qəbul edildi.

# II FƏSİL UKRAYNA BÖHRANI VƏ RUSİYA–QƏRB QARŞIDURMASININ KƏSKİNLƏŞMƏSİ

## 2.1 Ukrayna böhranının Şərgi Avropa dövlətlərinin enereji təhlükəsizliyinə təsirləri.

2008-ci ildə Ukrayna və Rusiya arasında yaşanan “qaz krizisi” Avropanı ciddi şəkildə narahat edirdi. Rusiya Ukraynaya qarşı tranzit olunacaq qazın oğurlanması iddiası ilə çıxış edirdi. Bu vəziyyət Avropanın xüsusiylə Şərgi Avropanın enerji təhlükəsizliyinə ciddi təhdid yaradırdı. Bu səbəblə 2009-cu il 8 yanvar tarixində Brusseldə avropa siyasətçiləri ilə “Qazprom” və “Neftoqaz Ukrayını” şirkətlərinin arasında konsultasiya keçirilmişdir. Avropa İttifaqı bu konfliktin tez bir zamanda həll olunmasının üzərində dururdu. O, tezliklə Rusiya qazının Avropaya fasiləsiz tranzitinin və tədarükünün təmin olunmasını istəyirdi.

Rusiya qazının Ukrayna üzərindən Avropaya tranzitinin dayandırılması Avropa Komissiyasını xüsusilə narahat edir. Avropa Parlamentinin sədri Hans-Gert Pötterinq Avropa komissarının Moskva və Kiyevdən gələn qonaqlarla görüşündən əvvəl bildirib ki, Aİ bu görüşdə məqsədi hər iki tərəfi problemin tez bir zamanda həll etməsinə təkan verməkdir.

Potterinq "Neuen Osnabrücker Zeitung" qəzetinə müsahibəsində deyib - "Biz Rusiyanın öz üzərinə götürdüyü öhdəliklərinə sadiq qalacağını gözləyirik. Biz həmçinin Ukraynanın buna heç bir maneə yaratmayacağını gözləyirik".[54]

Bu arada ekspertlər “Qazprom”la Ukrayna arasında uzanan münaqişənin hər iki ölkənin siyasi imicinə mənfi təsir etməklə yanaşı, bütün tərəflərə iqtisadi ziyan vura biləcəyindən narahatdırlar. Söhbət, xüsusən, qaz təchizatının dayandırılması nəticəsində Ukrayna qaz kəmərinə dəyə biləcək ciddi texniki zədədən gedir.

"Financial Times Deutschland"ın (FTD) mütəxəssisləri hesab edirlər ki, hazırkı vəziyyətdə magistral qaz kəmərində qazın sıxılmasını və sonradan nəqlini təmin edən kompressor stansiyalarının sıradan çıxması böyük ehtimaldır. Qaz nəqli sisteminin bu əsas qurğularının istismarı üçün əvəzedilməz şərt onların daxilində

daimi isti temperaturdur ki, bu da öz növbəsində fasiləsiz qaz təchizatı ilə təmin edilir. Onun olmaması hipotermiyaya və kompressor qurğularının sıradan çıxmasına səbəb olur.

Qəza baş verərsə, bunun nəticələrini Rusiya qazının ərazisinə tranzit etdiyi bütün Avropa ölkələri hiss edəcək. Aİ qorxur ki, mümkün böhranın miqyası çox böyük ola bilər və onun nəticələrini aradan qaldırmaq çətin olacaqdır.[54]

2014-cü ildə Avropaya qaz idxalının şaxələndirilməsi məqsədi ilə “Cənub axını” adlı layihə aktiv şəkildə müzakirə olunurdu. Bu layihəyə münasibət birmənalı deyildi. Belə fikirlər də irəli sürülürdü ki, “Cənub axını” kəməri faktiki olaraq Aİ-nin Rusiyadan qaz asılılığını artıra bilər. Bu, həmçinin Cənub-Şərqi Avropada qaz tədarükünün şaxələndirilməsi üzrə bütün digər layihələrin iqtisadi səmərəliliyinə xələl gətirə bilər, çünki regionda qaza tələbat kifayət qədər aşağıdır və regionun Qazprom-dan asılılığı kifayət qədər yüksəkdir. Əgər Rumıniya, Bolqarıstan, Yunanıstan, Kipr və Xorvatiya öz ənənəvi dəniz qazı və quruda şist qazı layihələrini inkişaf etdirə bilsəydilər, bu, qaz hasilatını artırar, daha çox dayanıqlı iş yerləri yaradar və qazın digər Avropa ölkələrinə daha qısa və daha ucuz ixracı üçün şərait yaradardı.[55]

2014-cü ilin 16 mart tarixində Krım Rusiya tərəfindən ilhaq edildi. Bu məsələ Ukrayna ilə yanaşı Avropa dövlətlərinə də ciddi təsir göstərdi. İlhaq nəticəsində onlar Rusiyaya yeni sanksiyalar tədbiq etməli oldular. Bu isə, öz növbəsində münasibətlərin gərginləşməsinə və daha çox pisləşməsinə gətirib çıxardı.[56]

Sanksiya və embarqolar eyni zamanda Şərgi Avropanın enerji təhlükəsizliyi sferasına da ciddi təhdidlər yaradırdı. Rusiyadan bir başa və Ukrayna üzərindən tranzit olunan qazın dayanması bu region üçün ciddi sınaqa çevrilə bilərdi.

2014-cü ilin aprel ayında Donbasda Ukrayna ilə Donesk və Luqansk qondarma respublikaları arasında hərbi qarşıdurmalar başladı. 7 aprel tarixi bu konfliktin başladığı gün kmi hesab edilir. 2014-cü ilin sonuna qədər qarşıdurma periodik döyüşlər və atıcı silahlardan istifadə olunmaqla davam etdi. Lakin daha

sonra münaqişədə artilleriya, aviasiya və s. texnikalardan istifadə olunmaqa başlandı. Bununla da hərbi qarşıdurmaların əhatə etdiyi ərazi genişləndi və qarşıdurmalar tam bir müharibəyə çevrildi.

Bu müharibə fonunda Şərgi Avropanın enerji təhlükəsizliyi məsələsi bir daha müzakirələrə səbəb oldu. Donbas vilayəti Ukraynanın kömür çıxardığı və Şərgi Avropanın ən böyük kömür yataqlarının yerləşdiyi regiondur. Bu səbəbdən kömür idxalında səngimələr Şərgi Avropanı Rusiyadan təmin olunan qaz idxalından asılıqını bir az da artırdı.

Rusiya ilə Qərb arasında münasibətlər həmişə olduğundan qat qat daha soyuq və sərtdir. Çoxları indiki vəziyyəti SSRİ ilə Qərb arasında 1950-ci illərdən 1980-ci illərin sonuna qədər davam edən gərgin və uzunmüddətli ideoloji qarşıdurma ilə müqayisə edərək yeni "Soyuq müharibə"-dən danışır.

Lakin belə bir müqaisə yanlış ola bilər. Çünki "Soyuq müharibə" elə bir qarşıdurma idi ki, onun əsasında bipolyar Dünya dururdu və burda hər iki fövqəl gücün öz iqtisadi və hərbi üstünlükəri var idi. Onlar Dünya hökmranlığı uğrunda mübarizə aparırdılar. O düvrün fövqəl güclərinin universialist dövlət ideologiyaları və onların güc potensiallarının rəqabətçil olması bu qarşıdurmanı qaçılmaz etmişdi.

Lakin bu gün müşahidə etdiyimiz qarşıdurma qüvvələr nisbətindən və ya hər hansı ideologiya istiqamətindən irəli gəlmir. Günümüzdəki münaqişə rəhbərlərin, strategiyaların qəbul etdiyi şüurlu qərarların və xarici siyasətdə bir sıra müəyyən münaqişələrin nəticəsidir. Bu faktorların heç biri qarşıdurmanı qaçılmaz etmir.

CNI Korporasiyası konsaltinq şirkətinin tədqiqatçısı və Kennan İnstitutunun əməkdaşı Maykl Kofman belə hesab edir ki, ABŞ-ın bu oyundakı itirə biləcəkləri soyuq müharibənin miqyası və ideoloji təbiətinə qədər çox yüksək ola bilər.

Ukrayna böhranından sonra Avropa Rusiyadan qaz nəqlinin növbəti dəfə kəsilməsi ilə üzləşə bilər. "Qazprom" hələ də Ukraynanın qaz tələbatının yarıdan çoxunu ödəyir və Avropanın qaz idxalının təxminən üçdə birini təmin edir, onun təxminən yarısı – 82 milyard kubmetri 2013-cü ildə Ukrayna ərazisindən keçib. Mart

ayında Qazprom Ukrayna üçün qiymətləri kəskin şəkildə qaldırdı və on səkkiz Avropa liderinə məktubla təhdid etdi ki, ödənişlər edilməsə, tədarükləri kəsəcək, Ukrayna isə qaz borclarını ödəmək qabiliyyətini itirən ciddi likvidlik böhranı ilə üzləşdi.

Moskvanın Krımı ilhaq etməsi və Ukraynadakı hərəkətləri qarşılıqlı enerji təhlükəsizliyi anlayışını sual altına qoyur. Avropa İttifaqına üzv dövlətlərin Rusiyanın enerji təchizatından asılılığı və onların bu enerjidən məhrum olmaq ehtimalı üzləşməsi milli təhlükəsizliyə ciddi təsir edir. Qazın qiyməti və qazın tranziti ilə bağlı yenidən mübahisələr 2006 və 2009-cu illərdə Rusiya-Ukrayna qaz böhranını xatırlatdı və bir daha Rusiyanın etibarsız təchizatçı olduğunu və enerjidən silah kimi istifadə etməyə hazır bir dövlət olduğunu nümayiş etdirdi.

Nəticədə Avropa İttifaqı və NATO dövlətləri getdikcə daha çox başa düşürlər ki, biznes əvvəlki kimi davam edə bilməz. Moskvanın güc tətbiqinə əl atması istehlakçılar üçün o deməkdir ki, qaz tədarükünü daha da şaxələndirmək və Rusiyadan asılılığı kökündən azaltmaq üçün aktiv addımlar atmaq lazımdır.

2014-cü ilin mart ayının sonunda keçirilən iclasında Avropa Şurası Avropanın qazdan enerji asılılığını azaltmaq üçün daha çox səylərə ehtiyac olduğunu qərara aldı. Bununla əlaqədar olaraq Avropa Şurası Avropa Komissiyasından Aİ-nin enerji təhlükəsizliyi ilə bağlı hərtərəfli araşdırma aparmağı və enerji təhlükəsizliyinin Rusiyadan asılılıqını azaltmaq üçün hərtərəfli plan hazırlamağı xahiş etdi.

Ukrayna ilə bağlı davam edən qarşıdurmada enerji yenidən istifadə edilən silah olsa, ən çox kim itirəcək? Qısamüddətli perspektivdə ən çox Avropa İttifaqı və Mərkəzi, Cənub-Şərqi Avropa və Baltikyanı ölkələri əziyyət çəkəcəklər. Bu bölgələrdə xüsusilə həssas Aİ Üzv Dövlətləri yerləşir. Bu ölkələrin inkişaf etməkdə olan Aİ-nin vahid enerji bazarına inteqrasiyası və onların bir-birinə bağlanmasında əhəmiyyətli irəliləyişlərə baxmayaraq, onların Rusiyanın qaz təchizatından asılılığı əhəmiyyətli olaraq qalır.

Regional Enerji Siyasətinin Tədqiqat Mərkəzinin məlumatına görə, 2015-ci ilin yanvarında Avropaya tədarükün hipotetik olaraq tam dayandırılması halında yəni, Ukrayna ərazisindən keçən tranzit marşrutu, Belarusdan keçən Yamal kəməri, eləcə də Şimal Axını kəməri (Almaniyaya birbaşa qaz kəməri) tam fəaliyyətini dayandırsa Mərkəzi və Şərqi Avropa ölkələrində qaza olan orta tələbatın cəmi 77% təmin edilə biləcək, qazın qiyməti isə orta hesabla 37% artacaq.[23]

2015-ci ilin mart ayına qədər bir illik hipotetik embarqo nəticəsində Rusiya tədarükünü 30% azaldacaq, qiymətlər 31% artacaq, qaza olan tələbat təxminən yarıya qədər ödəniləcək və fəlakətli iqtisadi nəticələrə gətirib çıxaracaq. Bu məsələdən Qərbi Avropa ölkələri, ən azı tədarükün fiziki təhlükəsizliyi baxımından daha az təsirlənəcəklər, çünki onların şaxələndirilmiş LNG bazarı var. Belə ki, onlar Norveç, Şimali Afrika və ehtiyat gücün olduğu çoxsaylı reqazifikasiya terminalları vasitəsilə əlavə LNG tədarük imkanı var. Bununla belə, hətta Qərbi Avropada qiymətlər əhəmiyyətli dərəcədə artacaq ki, bu da Atlantik okeanının hər iki tərəfində qaz qiymətləri arasında böyük fərqlə bağlı narahatlığı daha da artıracaq.

Avropanın qısamüddətli ehtiyaclarına baxmayaraq, yuxarıda qeyd edildiyi kimi, 2009-cu ildə Rusiya-Ukrayna qaz böhranı ilə müqayisədə Rusiyanın nə qədər az siyasi və kommersiya təzyiqinə malik olması təəccüblüdür. “Qazprom” artan likvidlik və inteqrasiya ilə səciyyələnən, rəqabət qaydalarına ciddi əməl edən Avropa qaz bazarında digər təchizatçılarla rəqabət aparmalıdır. Qalıq yanacaq ixracı, xüsusilə neft, Rusiya büdcə gəlirlərinin 53%-ni təşkil edir. Rusiyanın ixracatının 72%-ni qalıq yanacaqlar təşkil edir. Avropa OECD ölkələrinə qaz ixracı Rusiyanın ÜDM-nin 5%-ni təşkil edir. Qazprom gəlirinin təxminən 55%-ni Avropa İttifaqına qaz satışından əldə edir.

Avropa və Asiya bazarlarını təmin edən Qərbi Sibir qaz yataqları arasında fiziki əlaqənin olmaması, Rusiyanın Şərqi Sibirin zəif inkişaf etmiş yataqları əvəzinə bu yataqlardan istifadə cəhdlərinə Çinin mane törətməsi və qiymətlə bağlı fərqlər də daxil olmaqla, Moskvanın “Şərq ixrac siyasəti”nə bir sıra amillər mane olur. Çinin Mərkəzi Asiya və Myanma (Birma) daxil olmaqla digər mənbələrdən qaza çıxışı

var, həmçinin LNG-ni (mayeləşdirilmiş təbii qaz) ilk növbədə Yaxın Şərqdən və gələcəkdə Avstraliya, Şərqi Afrika, Kanada və hətta Birləşmiş Ştatlar kimi dövlətlərdən tədarük edə bilər. Rusiya mövqeləri yaxşılaşan iki alıcı arasında sıxışıb qalıb: bir tərəfdən Avropa qaz bazarı getdikcə inteqrasiya olunur, digər tərəfdən isə Çin və Asiya bazarları sürətlə böyüyür, hər ikisinin forma və mənbələr baxımından çoxsaylı təchizat variantları var.

Çox vaxt diqqət qaza verilir, lakin neft Rusiya iqtisadiyyatında daha mühüm rol oynayır və Moskva da bu cəbhədə həssasdır. Rusiyanın ənənəvi və qeyri-ənənəvi neft ehtiyatlarının, xüsusən sıx (şist) neftin inkişafı hesabına neft hasilatını saxlamaq üçün Qərb texnologiyasına çox ehtiyacı var.

Moskvanın Qərb Beynəlxalq Neft Şirkətləri (IOCs) ilə əməkdaşlıqda neft hasilatını dəstəkləmək və artan xərclərə nəzarət etmək üçün öz sıx neft ehtiyatlarını fəal şəkildə kəşf etdiyi bir şəraitdə, Rusiya neft şirkətlərinə və xüsusilə Rosneft-ə qarşı daha sərt sanksiyalar rejimi orta müddətli perspektivdə ciddi zərbə ola bilər.

Moskvanın Qərb Beynəlxalq Neft Şirkətləri (IOCs) ilə əməkdaşlıqda neft hasilatını dəstəkləmək və artan xərclərə nəzarət etmək üçün öz sıx neft ehtiyatlarını fəal şəkildə kəşf etdiyi bir şəraitdə, Rusiya neft şirkətlərinə və xüsusilə Rosneft-ə qarşı daha sərt sanksiyalar rejimi orta müddətli perspektivdə ciddi zərbə ola bilər. Bu münasibətlər üçbucağının Rusiyaya sərmayə qoyan və sanksiyalara etiraz edən MMC-lər, əlavə sanksiyaları nəzərdən keçirən Qərb hökumətləri və Qərbin nou-hausuna ehtiyacı olan Rusiyanın əsas “oyunçuları” (xüsusilə Rosneft) arasında necə oynayacağı, bu münasibətlərin davamlılığı üçün çox vacibdir.

Ukrayna böhranı transatlantik enerji strategiyalarında yeni bir fəsildən xəbər verə bilər və transatlantik alyansın tarixinin enerji komponentində “ərəb neft embarqosu”nun əksi ola bilər. Bir çox cəhətdən, Soyuq Müharibəyə baxmayaraq, Aİ-ni xarici enerji təchizatçısı kimi Rusiyaya üz tutmağa məcbur edən və ABŞ-ı enerji ticarətində məhdudlaşdırıcı siyasətlər tətbiq etməyə sövq edən 1973-cü il embarqosu olmuşdur.

Avropa İttifaqında və ABŞ-da Atlantikanın hər iki tərəfində enerji strategiyalarının yenidən nəzərdən keçirilməsinə paralel olaraq Rusiya ilə enerji əlaqələrinin gələcək inkişafının qiymətləndirilməsi baxımından əsaslı dəyişikliyin baş verdiyinə dair aydın əlamətlər var. İttifaq ölkələri Rusiya silahlı qüvvələrinə qarşı möhkəm dayanmaq, siyasi iradə nümayiş etdirmək və daha güclü transatlantik enerji ittifaqı qurmaq üçün resurslar ayırmaq şərti ilə hazırkı böhranda yaxşı fürsət əldə edə bilərlər. Bunun nəticələri təkcə NATO ölkələrinə və Rusiyaya təsir etməyəcək. Bu, açıq və şəffaf qlobal enerji idarəetmə və ticarət sisteminə töhfə verəcək.

Bununla yanaşı Ukrayna böhranı qida təchizatı baxımından Dünyanın digər hissələrinə də mühüm təsir edəcək. Belə ki, Rusiya və Ukraynadan buğda tədarükünün dayandırılması halında dünyanın bir sıra regionları ərzaq qıtlığı və aclıqla üzləşə bilər. Ukrayna böhranı səbəbindən dünya 2008-ci il qlobal maliyyə böhranından sonrakı durumla müqayisə oluna bilən ərzaq dəyərlərinin sürətli yüksəlişi ilə üzləşib. Rusiya və Ukraynadan tədarükün azalması və ya tam kəsilməsi mövcud durumu daha da ağırlaşdırması təhlükəsi yaradır. BMT-nin Ümumdünya Ərzaq Proqramının baş iqtisadçısı Arif Hüseynin dediyinə görə, Ukrayna böhranının nəticələri dünyanın digər bölgələrinə də öz təsirini göstərəcək. Ekspert bildirir ki, "Taxıl və neftin qiymətləri bahalaşmaqda davam edir və hətta 2008-ci ilin ərzaq və yanacaq böhranından bəri müşahidə olunmayan göstəriciləri üstələyir."[24]

Onu da qeyd etmək lazımdır ki, bütün Dünyada ərzaq qiymətləri hələ Ukraynada vəziyyətin ağırlaşmasından əvvəl də artıb. Bunun səbəb olaraq iqlim böhranı və koronavirus pandemiyası göstərilir. İndi bu faktorlar Ukraynada əkin mövsümünün pozulması və Rusiyadan taxıl ixracına bir müddətlik qadağa riskini əlavə edib.

Günümüzdə dünyada buğda tədarükünün 10 faizini və qarğıdalı ixracatının 15 faizini Ukrayna həyata keçirir. Rusiya isə öz növbəsində ən böyük taxıl ixracatçısı və günəbaxan toxumlarının ixracında liderlər yerlərdən birini tutur. O cümlədən,

Qara dəniz bölgəsindən buğda tədarükünün 40%-i ərzaq qiymətlərinin artıq kəskin bahalaşdığı Yaxın Şərq və Afrika ölkələrinin payına düşür.

Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondunun rəhbəri Jilber Unqbo bildirib edib ki, davam edən böhran əsas məhsulların tədarükünü azalda bilər, ərzaq qiymətlərinin artmasına və aclığa səbəb ola bilər: "Bu, qlobal ərzaq təhlükəsizliyini təhlükə altına qoya və geosiyasi gərginliyi artıra bilər. Nəticələr onsuz da ailələrini dolandırmaqda çətinlik çəkənlər üçün xüsusilə ağır olacaq".

Yaxınlaşmaqda olan ərzaq kollapsı təbii amillərlə daha da öz təsirini artırır. Belə ki, ötən il taxıl ixracında liderlərdən biri olan Kanada quraqlıq və isti ilə üzləşdi, oxşar problemlər Latın Amerikasında müşahidə olunurdu, ABŞ meşə yanğınları və digər fəlakətlərlə əhatə olundu, Avstraliya hazırda nəticələri gələcəkdə kənd təsərrüfatına ağır təsir edən daşqınlardan əziyyət çəkir.

BMT-nin Ümumdünya Ərzaq Proqramının Şərqi Afrika üzrə regional direktoru Maykl Danfordun fikrincə, hazırda aclığa ən yaxın yer Şərqi Afrika ölkələridir. Afrika Buynuzu regionunda havanın uzun müddət yağışlı olması məhsulu və mal-qaranı kütləvi məhv edib. İcmalar arasında münaqişələrə səbəb su və otlaqların olmaması olub: "Afrika Buynuzu bölgəsində quraqlıqların təkrarlanmasına görə mal-qara tələf olur, aclıq güclənir və məhsullar ölür. Təcili humanitar köməyə və icmaların gələcəyə davamlılığını artırmaq üçün davamlı dəstəyə ehtiyac var".[25]

## 2.2 Ukrayna böhranının Şərgi Avropa dövlətlərinə geosiyasi təsirləri.

Mərkəzi və Cənub-Şərqi Avropada NATO üzvü olan ölkələr Qərbin Rusiya Federasiyası ilə necə davranması məsələsində qeyri-adi dərəcədə mühüm rol oynayır. Ukrayna ilə bağlı münaqişənin kəskinləşməsi ilə NATO Rusiya ilə necə davranacağına dair həmişəkindən daha çox fikir ayrılığına məruz qalmışdır. ABŞ və Böyük Britaniya sərt xətt və nəzarətin tərəfdarıdır; Almaniya, Fransa və İtaliya dialoqun üzərində dururlar; üçüncü qrup Bolqarıstan, Macarıstan və Slovakiya münaqişədən və qoşunların hərəkətindən kənarda qalmaq istəyirlər.[57]

